# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 68

*Milli Məclisin iclas salonu.*
*10 aprel 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 118 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 115 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Təhsil haqqında” və “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev, Elçin Mirzəbəyli, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov, Nigar Məmmədova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Polad Bülbüloğlu

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə, Vüqar Bayramov, Aydın Hüseynov, Müşfiq Məmmədli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.19 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 11.37 dəq.)

| | |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Zahid Oruc, Siyavuş Novruzov, Razi Nurullayev, Hikmət Məmmədov, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Azay Quliyev, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**Təklif:** 20–25-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 115 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əhliman Əmiraslanov, Siyavuş Novruzov, Göydəniz Qəhrəmanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev, Hikmət Məmmədov, Nizami Səfərov, Vasif Qafarov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova, Elçin Mirzəbəyli, Günay Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**10. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Azər Əmiraslanov, Anar İsgəndərov, Fazil Mustafa, Azər Allahverənov, Nigar Məmmədova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |

| | |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**Cari məsələlərin müzakirəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fazil Mustafa

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*10 aprel 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, buyurun, qeydiyyatdan keçin.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 115 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, biz iclasa başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti martın 24-dən 26-dək Çin Xalq Respublikasında işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd Asiya naminə Boao Forumunda iştirak etmək idi.

Qeyd edim ki, forum Asiya-Sakit Okean regionunun 26 ölkəsi tərəfindən 2001-ci ildə təsis edilmiş, sonradan isə daha 3 ölkə onlara qoşulmuşdur. Azərbaycan bu tədbirə xüsusi qonaq kimi dəvət olunmuşdu.

Hörmətli deputatlar, Asiya naminə Boao Forumunun İllik Konfransında mənim çıxışım oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Çin Xalq Respublikasının sədri cənab Si Cinpinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan–Çin münasibətlərindən danışdım.

Çin tərəfindən irəli sürülən və Azərbaycan tərəfindən dəstəklənən qlobal təşəbbüslərin əhəmiyyətini vurğuladım. Azərbaycanın Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrildiyini, “Bir kəmər, bir yol”

layihəsinin inkişafına fəal şəkildə töhfə verməyə davam etdiyini də diqqətə çatdırdım. Qeyd etdim ki, Azərbaycan Çindən sonra bu təşəbbüsə ən böyük sərmayə qoyan ikinci ölkədir.

Onu da deyim ki, Azərbaycanla Ermənistan arasında sülh prosesi çərçivəsində ölkəmizin qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası Orta Dəhlizin səmərəliliyini daha da artıracaqdır.

Hörmətli həmkarlar, 30 illik işğala son qoyan Azərbaycanın suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmama prinsiplərini daim dəstəklədiyini bildirdim. Azərbaycan dövlətinin irəli sürdüyü qlobal təşəbbüslər, Bakıda keçirilmiş və keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirlər haqqında forum iştirakçılarına məlumat verdim.

Hörmətli deputatlar, səfər çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri cənab Cao Lıci ilə görüşüm oldu. Görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Parlamentlərarası əməkdaşlığın genişləndirilməsi yolları haqqında fikir mübadiləsi aparıldı, o cümlədən qanunvericilik orqanlarının komitələri arasında institusional əlaqələrin inkişaf etdirilməsi imkanları və digər məsələlər nəzərdən keçirildi.

Hörmətli həmkarlar, hesab edirəm ki, Çin Xalq Respublikasına işgüzar səfər uğurlu oldu.

İndi isə, hörmətli deputatlar, xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| --- | --- |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi. Biz indi gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, bizim gündəliyimizdə 11 məsələ var.

1-ci məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Beynəlxalq sənədlə bağlı olduğuna görə layihə bir oxunuşda qəbul edilməlidir. Bildiyiniz kimi, bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. İlk öncə onu vurğulayım ki, sözügedən qanun layihəsi "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"in təsdiqi barədədir. Məlum saziş 2026-cı il yanvarın 16-da Bakı şəhərində imzalanıb, 15 maddədən ibarətdir və onun ekvivalentliyi bütün kateqoriyalar üzrə keçərlidir. Sazişə əsasən tərəflər səlahiyyətli qurumları tərəfindən öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq, verilmiş daimi və etibarlı sürücülük vəsiqələrini qarşılıqlı olaraq tanıyır. Eyni zamanda, sazişin müddəaları

ərizə və müraciət qaydalarını, nümunələrin mübadiləsini, onun qüvvəyə minməsinə dair zəruri dövlətdaxili prosedurları, habelə fikir ayrılıqlarının həlli və sazişin ləğvi kimi bir sıra məsələləri əhatə edir.

Hörmətli həmkarlarımdan səsvermədə qanun layihəsinə dəstək olmalarını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Elşən müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə ikinci komitədə də baxılıb. Bu komitə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsidir. Bu gün komitənin rəyini bildirmək üçün mən hörmətli Elçin Mirzəbəyliyə söz verirəm. Buyurun, Elçin müəllim.

**Elçin Mirzəbəyli,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media mənsubları. Müzakirəyə təqdim olunan "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş" mahiyyət etibarilə geniş iqtisadi və humanitar məzmun kəsb edən beynəlxalq sənəddir.

Qanun layihəsi təmsil olunduğum Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə olunub və yekdilliklə dəstəklənib.

Artıq qeyd olunduğu kimi, bu sənəd hüquqi baxımdan vətəndaşların sürücülük vəsiqələrinin qarşılıqlı tanınmasını və sadələşdirilmiş qaydada dəyişdirilməsini nəzərdə tutur.

Azərbaycanla Belarus arasında münasibətlər uzun illər ərzində qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq əsasında inkişaf edir. Bu

münasibətlər təkcə siyasi dialoqla məhdudlaşmır, eyni zamanda, iqtisadi, sənaye, kənd təsərrüfatı, nəqliyyat və logistika sahələrində konkret layihələr və qarşılıqlı maraqlar üzərində qurulub.

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərarası əlaqələrin effektivliyi bu münasibətlərin birbaşa vətəndaşların gündəlik həyatına təsiri ilə ölçülür. Bu saziş isə Azərbaycan və Belarus vətəndaşlarının hərəkət imkanlarını genişləndirir və əlavə bürokratik maneələri aradan qaldırır. Digər tərəfdən, sürücülük vəsiqələrinin qarşılıqlı tanınması dövlətlər arasında hüquqi sistemlərə və inzibati institutlara olan yüksək etimadın göstəricisi kimi qiymətləndirilə bilər. Belə bir mexanizmin tətbiqi o deməkdir ki, tərəflər bir-birinin standartlarını, təhlükəsizlik meyarlarını qəbul edirlər.

Sazişin nəqliyyat və logistika sahəsindəki əməkdaşlığa da müsbət təsiri var. Bildiyiniz kimi, Azərbaycan artıq regionun mühüm nəqliyyat və tranzit mərkəzidir. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz üçün beynəlxalq nəqliyyat əlaqələrinin genişləndirilməsi əsas istiqamətlərdən biridir. Bu baxımdan təqdim olunan saziş yalnız fərdi vətəndaşların deyil, həm də biznes subyektlərinin fəaliyyətinə müsbət təsir göstərərək iqtisadi əlaqələrin də intensivləşməsinə xidmət edəcək.

Eyni zamanda, qeyd etmək lazımdır ki, belə sənədlər dövlətlərarası münasibətlərin dayanıqlığını təmin edən mühüm elementlərdən biridir. Çünki əməkdaşlıq nə qədər konkret və praktik sahələrdə qurulursa, onun davamlılığı da bir o qədər yüksək olur.

Hörmətli həmkarlar, bugünkü mürəkkəb beynəlxalq şəraitdə etibarlı tərəfdaşlıqlar xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının həyata keçirdiyi çoxşaxəli, çevik və istisnasız olaraq milli maraqlara xidmət

edən xarici siyasət məhz belə münasibətlərin qurulmasına, inkişaf etdirilməsinə xidmət edir. Belarus ilə münasibətlər də bu siyasətin uğurlu istiqamətlərindən biridir.

Təqdim olunan saziş bu münasibətlərin hüquqi və praktiki əsaslarını daha da möhkəmləndirərək əməkdaşlığın yeni sahələrdə genişlənməsi üçün zəmin yaradır.

Təmsil olunduğum Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin yekdil rəyinə görə, sənədin qəbul edilməsi həm dövlətlərarası münasibətlərin inkişafına, həm də vətəndaşlarımızın maraqlarının təmin olunmasına xidmət edəcək.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Yazılan var. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Azərbaycanla Belarus arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında saziş ilk baxışda texniki xarakterli razılaşma təsiri bağışlasa da, qərar ölkəmizin gələcək iqtisadi mənafeləri baxımından mühüm addımdır. Ölkəmiz qələbədən sonra yeni mərhələyə daxil olur. Yalnız yollar, limanlar və dəhlizlər deyil, məhz həmin infrastrukturu işlədən insan kapitalı, o cümlədən sürücülər olmadan dövlətlərarası ticarəti hərəkətə gətirmək mümkün deyil. Belarusla imzalanan sənəd sürücülər üçün hüquqi baryerləri aradan qaldırır, daşımalar üçün yeni imkanlar açır.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanı regional nəqliyyat və logistika mərkəzinə, yəni xaba çevirməyə çalışır. Həmin

siyasətin əsasını Şərq–Qərb dəhlizi, Şimal–Cənub nəqliyyat xətti və yaxın gələcəkdə açılması gözlənilən Zəngəzur yolu təşkil edəcək.

Ermənistanla sülh gündəliyinin nəticəsi olaraq regionda bütün kommunikasiyalar açılacaq. Nəticədə ənənəvi tarixi yollar və daşımaçılıq bərpa olunacaq, yeni marşrutlar və yük axınları yaranacaq. Lakin sürücü yoxdursa, daşıma şirkətləri güclü deyilsə, beynəlxalq sertifikatlaşma sistemi qurulmayıbsa, o zaman layihələr öz potensialını tam reallaşdıra bilməz. Rəsmi statistikaya görə Azərbaycanda yüz minlərcə aktiv sürücülük vəsiqəsi olan vətəndaşımız var. Rəqəmlər ali təhsil diplomu daşıyan insanlar qədər böyük iqtisadi gücə və potensiala malik qüvvənin varlığını göstərir. Təkcə yükdaşıma sektorunda 5 mindən artıq aktiv daşıyıcı şirkət və 30–50 min arası peşəkar sürücü fəaliyyət göstərir. Belə bir şəraitdə Belarusla imzalanan saziş müəyyən sayda sürücülərə yeni imkanlar açır. Vətəndaşlarımız daimi yaşadıqları halda hüquqi və inzibati baryerlərdən azad olunur, vəsiqələri tanındığı və dəyişilmək imkanı qazandığı üçün hərəkət müstəqilliyi əldə edir, işləməkdən ötrü əlavə imtahandan keçmir, izafi vaxt və maliyyə resursu itirmir. Nəticədə əmək bazarı genişlənir, gəlir dövriyyəsi artır.

İkincisi, saziş logistika şirkətləri üçün də ciddi üstünlüklər yaradır. Çünki sürücü çatışmazlığı dünyada böyük problemdir. Nəinki Avropada, keçmiş Sovet məkanında da yüz minlərcə sürücüyə ehtiyac var. Bir sürücü xaricdə həftələrlə bürokratiyaya və sənədlərin dəyişilməsinə vaxt sərf edirsə, bütün logistika zənciri zəifləyir. Ona görə də müzakirəyə çıxarılan saziş mühüm iqtisadi, sosial əhəmiyyətə malikdir. Çünki iki ölkə arasında tranzit sürətini artırır, əksinə, xərcləri isə azaldır. Hesablamalara görə belə razılaşmaların geniş tətbiqi nəticəsində yükdaşımaların səmərəliliyi 15 faiz

arta, logistika xərcləri isə 10 faizə qədər azala bilər. Amma əvəzində tranzit gəlirləri yüz milyonlarca dollar artar.

Azərbaycan artıq Türkiyə, Gürcüstan, Qazaxıstan, Ukrayna və digər ölkələrlə oxşar sazişlər imzalayıb. Belarusla əməkdaşlıq sürücülük vəsiqəsinə malik insanlarımız üçün coğrafiyanı daha da genişləndirir. Lakin biz sürücülük və daşımaçılıq sektorunu ayrıca iqtisadi strategiya səviyyəsinə qaldırmalıyıq. İran ətrafında savaş göstərdi ki, dünyada yeni güc mərkəzləri yalnız enerji və texnologiya ilə deyil, daha çox logistika ilə formalaşır.

Ölkəmizin unikal üstünlüyü var – əlverişli coğrafi mövqe və qələbəmiz. Dünyada logistika bazarı trilyonlarca dollar həcmindədir. Biz beynəlxalq sertifikatlı sürücülər hazırlamalıyıq. Logistika təhsilini gücləndirməliyik. Ona görə də ölkəmizin iri və genişmiqyaslı daşıma şirkətlərinin formalaşmasına ehtiyac var. Dünyada kiçik operatorlarla deyil, böyük  logistika brendləri ilə rəqabət aparılır. Hökumət nə qədər belə qərarlar qəbul etsə, nəqliyyat sistemimizin hərəkət coğrafiyasını, deməli, ticarət və daşımaçılığı da genişləndirər. O zaman neftdən asılılığa da son qoyular.

Sazişə səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

Qanun qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. Növbəti iki məsələ üçüncü oxunuşda olan qanun layihələridir.

Gündəliyin 2-ci məsələsi Əmək Məcəlləsində və "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun, məlumat verin.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, birinci və ikinci oxunuşlar zamanı qanun layihəsi haqqında ətraflı məlumat vermişdim. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bu qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün hörmətli Nigar xanım Məmmədovaya söz verirəm. Nigar xanım, buyurun.

**Nigar Məmmədova,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, komitənin rəyi müsbətdir. Rəy və təklif daxil olmamışdır. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

**Səsvermənin nəticələri** (saat 11.16 dəq.)

| | |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Mədəniyyət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Mədəniyyət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Polad müəllim Bülbüloğluya söz verirəm. Polad müəllim, buyurun.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Heç bir yeni təklif, irad olmadığına görə qanun layihəsini üçüncü oxunuşda olduğu kimi səsə qoymağı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim.

Hörmətli həmkarlar, heç kimin sualı, sözü yoxdur. Mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.17 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə növbəti 3 məsələ ikinci oxunuşda olan qanun layihələridir. Biz indi 4-cü məsələyə keçirik və bu məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun

layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Əminə Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuş zamanı qanun layihəsi haqqında ətraflı məlumat verilmişdir. Səslənən suallara aydınlıq gətirilmişdir. Bir daha hörmətli həmkarlarıma xatırlatmaq istəyərdim ki, dəyişikliklərə əsasən qüvvədə olan qanunvericiliyin mətnində fərqli olaraq, həm İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsində, həm də Cinayət Məcəlləsinin 308-1-ci maddəsində “dövlətə məxsus olan hüquqi şəxslərin” ifadəsi əlavə edilməklə onlara ayrılan vəsaitin də təyinatından kənar istifadə edilməsinin sanksiyalaşması təklif edilir. Həmçinin xatırlatmaq istərdim ki, sizə təqdim olunan arayışda da bilavasitə göstərilib ki, dövlətə məxsus olan hansı hüquqi şəxslər bu kateqoriyaya aiddir. Onların arasında, əlbəttə  ki, publik hüquqi şəxslər də qeyd olunubdur. Bu müddət ərzində komitəmizə hər hansı bir təklif daxil olmadığından, qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli müəllim, Siz dünən komitə iclasında bir az ətraflı məlumat verdiniz, bəlkə indi də məlumat verəsiniz. Əminə xanıma biz minnətdarlığımızı bildiririk. Siz bununla bağlı nə isə demək istəyərsinizmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox? Oldu.

Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur və bilirsiniz, biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.19 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə biz müzakirəyə keçirik. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də qanun layihəsini dəstəkləyirəm və ona səs verəcəyəm.

Bir tərəfdən, bu istiqamətdə hüquqi bazanın möhkəmləndirilməsi, – xüsusən nəzərə alsaq ki, cənab Prezidentin rəhbərliyi ilə rəqəmsal maliyyə informasiya sistemi formalaşdırılır, institusional olaraq şəffaflığın artırılması üçün elektron xidmətlərdən daha yaxından istifadə tətbiq olunur, – digər tərəfdən isə, dövlət vəsaitlərinin təyinatı üzrə xərclənməsi, hüquqi baxımdan bu istiqamətdə bazanın möhkəmlənməsi təqdim olunan qanun layihəsi üzrə dəyişikliklərin həyata keçirilməsini zəruri edir. O baxımdan qanun layihəsi mövcud iqtisadi islahatlara və bu istiqamətdə müəyyənləşdirilmiş hədəflərə uyğun olaraq hazırlanmış layihədir.

Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir sıra təkliflərimi təqdim etmək istərdim. Əvvəla, təqdim olunan qanun layihəsinə əsasən məcəllənin 308-1-ci maddəsində təklif edilən dəyişikliklərdə məhz dövlət

vəsaitinin təyinatdan kənar istifadəsi, təyinatdan yayındırılması hadisəsi baş verirsə, o zaman törədilən cinayət predmetinin dəyərinin, yəni təyinatdan kənar istifadə olunan vəsaitin 100 faizi miqdarında cərimə nəzərdə tutulur. Buna uyğun olaraq, təbii ki, Cinayət Məcəlləsi ilə azadlıqdan məhrum olunmaq halları nəzərdə tutulmuşdur.

Nəzərə alsaq ki, mövcud mətndə cərimələr 9 min manatdan 13 min manatadək, yəni bu intervalda dəyişir. Praktik olaraq yeni dəyişikliklərlə biz fiks, yəni ölçülə bilən rəqəmlərdən faiz meyarına keçidi müşahidə edirik. Yəni əgər mövcud mətndə daha konkret rəqəmlər öz əksini tapmışdırsa, təklif olunan dəyişikliklərdə artıq cərimələrlə bağlı faiz meyarından istifadə təklif olunur. Ona görə mən təklif etmək istərdim ki, biz diferensial olaraq həmin maddə üzrə həm fiks, yəni ölçülə bilən rəqəmlərdən, həm də faiz meyarından istifadə edə bilək. Çünki bəzi hallarda dəymiş ziyanın məbləği fiks rəqəmlərlə ifadə olunanda böyük olmaya bilər. Amma nəzərə alsaq ki, söhbət dövlət vəsaitinin təyinatından yayındırılmasından gedir, o baxımdan mən təklif edərdim ki, bu, həm də minimum əməkhaqqı məbləği ilə, yəni bəlli bir misli ilə məhdudlaşdırılsın. Ona görə bu maddə üzrə təklif edərdim ki, bizim müzakirə etdiyimiz dəyişiklik redaktə olunaraq aşağıdakı kimi təqdim olunsun. “Dövlət vəsaitindən təyinatı üzrə istifadə edilmədikdə, xeyli miqdarda törədildikdə minimum əməkhaqqının bəlli mislindən, – bu rəqəm, təbii ki, razılaşdırıla bilər, – az olmamaq şərti ilə cinayət predmetinin dəyərinin, yəni təyinatından kənar istifadə olunan vəsaitin 100 faizi miqdarında cərimə edilməklə azadlıqdan məhrum edilir”. Bu zaman artıq nəticə etibarı ilə biz cərimənin məbləğini minimumlaşdırırıq, digər tərəfdən, meyar olaraq minimum əməkhaqqı meyarına bağlayırıq. Nəzərə alsaq ki,

minimum əməkhaqqının məbləği cənab Prezident tərəfindən müəyyənləşdirilir və meyar olaraq istifadə olunan bir meyardır.

Eyni zamanda, təbii ki, dəymiş ziyanın məbləği, yəni faiz meyarı nəzərə alınmaqla da, cərimələrin hesablanması həyata keçirilir.

Digər təklifim bizim müzakirə etdiyimiz məcəllənin 308-1.2-ci maddəsi ilə bağlıdır. Bu maddədə qeyd olunur ki, bütövlükdə, bu maddə üzrə dövlət vəsaitinin təyinatından kənar istifadə halları baş verirsə və bu ilk dəfə baş verdiyi halda cinayət predmetinin dəyəri, yəni təyinatından yayındırılmış məbləğ tam olaraq ödənildiyi halda cinayət məsuliyyətindən azad olunur. Nəzərə alsaq ki, məcəllədə xeyli miqdarda ziyan 50–250 min manat ziyan kimi təsnifləşdirilib. Külli miqdarda ziyan isə 250 min manatdan daha çox olan ziyandır.

Biz xüsusi ilə inkişaf etmiş ölkələrin və bəzi MDB dövlətlərinin praktikasına baxsaq, adətən, məsuliyyətdən azadolma nisbətən kiçik məbləğli vəsaitlərin yayındırılması halları baş verəndə tətbiq olunur. Amma nəzərə alaq ki, bizim məcəllədə xeyli miqdarda ziyanın məbləği Azərbaycanda minimum əməkhaqqının 125 mislindən 625 mislinədək olan məbləğdir, külli miqdarda olan ziyanın məbləği isə minimum əməkhaqqının 600 mislindən daha çox olan məbləğdir. Yəni praktik olaraq kifayət qədər böyük rəqəmlərdir və bu o deməkdir ki, əgər məhz bu məbləğdə vəsaitlər büdcədən və ya təyinatından yayındırılırsa və bu halda həmin vəsaitlər tam olaraq geri qaytarılırsa, o zaman cinayət məsuliyyətindən azad olunur.

Ona görə mən təklif etmək istərdim ki, xüsusən inkişaf etmiş ölkələrin praktikası nəzərə alınaraq, burada da ziyanın məbləği konkretləşdirilsin. Xüsusən də böyük məbləğdə vəsaitin təyinatından yayındırılması halları

baş verirsə, bu halda, təbii ki, cinayət məsuliyyətinə cəlb edilməməsi şamil olunmasın.

Ona görə mən təklif etmək istərdim ki, məcəllənin 308-1.2-ci maddəsində konkret olaraq hansı hallarda cinayət məsuliyyətinə cəlb edilməmənin şamil olunmaması ayrıca qeyd olunsun. Bu məbləğ konkret göstərilsin və daha kiçik məbləğlərdə belə bir hüquq tanınsın.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, söz verdiyinizə görə təşəkkür edirəm. Bizim müzakirə etdiyimiz qanun layihəsi çox əhəmiyyətli qanun layihəsidir. Bu, dövlət büdcəsinin, yəni konkret olaraq dövlətə məxsus olan bütün vəsaitlərin səmərəli, məqsədli, nəticəli şəkildə xərclənməsinin hüquqi bazasını yaradır və kənarlaşmanın qarşısının alınması üçün çox əhəmiyyətli maddələr əlavə olunur.

Mənim təklifim iki istiqamətdədir. Birinci redaksiya xarakterlidir. Burada göstərilir, "Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının, büdcədənkənar dövlət fondlarının və ya dövlətə məxsus olan hüquqi şəxslərin". Məlumdur ki, "dövlətə məxsus olan hüquqi şəxslər" əlavə olunur və burada "və ya" sözləri işlədilməli deyil, vergül qoyulmalıdır. Çünki "və ya" fərqləndirmə deməkdir, ya bu, ya da bu. Ona görə bunlar, konkret olaraq dövlətə məxsus olan bütün vəsaitlər, bütün fondlar və hüquqi şəxslər üzrə olduğu kimi sadalanır, "və ya" deyil, bir daha qeyd edirəm, "ya" sözü götürülür, "və" sözü saxlanılır, yaxud vergül qoyulur.

İkinci təklifim nədən ibarətdir? Sadalanan fondların və hüquqi şəxslərin vəsaitlərinin yayındırılmasının iki forması var. Birinci hal ondan ibarətdir

ki, bu, xərc maddələri üzrəmi yayınmadır və ya yayınıb mənimsəmədirmi? Ona görə, hesab edirəm ki,  bunların arasında həm hüquqi məsuliyyət baxımından, həm də qanunda  göstərilməklə o iki hal ayrılıqda öz əksini tapsın.

Qanun  layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Müşfiq Məmmədli. Buyurun.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirəyə çıxarılan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308-1-ci maddəsində dəyişikliklər layihəsi, ümumilikdə, hüquqi baxımdan mühüm və zəruri addımdır. Xüsusi ilə “dövlətə məxsus olan hüquqi şəxslər” anlayışının genişləndirilməsi, dövlət payı olan qurumların, xüsusən publik hüquqi şəxslərin də məsuliyyət dairəsinə daxil edilməsi müasir idarəetmə prinsiplərinə uyğun yanaşmadır.

Layihəyə əlavə olunan qeyd hissəsində 3-cü bənd, yəni bu əməli ilk dəfə törətmiş şəxsin vurduğu ziyanı tam ödədiyi halda cinayət məsuliyyətindən azad olunması məsələsi daha ciddi və prinsipial yanaşma tələb edir.

Hörmətli həmkarlar, burada söhbət sıradan hüquq pozuntusundan deyil, dövlət büdcəsi vəsaitinin sərəncamçısı olan vəzifəli şəxslərdən gedir. Bu şəxslər dövlətin onlara göstərdiyi etimadı daşıyır, ictimai resursları idarə edir və cəmiyyət qarşısında xüsusi məsuliyyət daşıyırlar. Bu baxımdan “ziyanı ödə və məsuliyyətdən azad ol” yanaşması, məncə, kifayət etmir və praktika göstərir ki, bu norma sui-istifadə üçün zəmin yaradır.

İcazə verin, diqqətinizi konkret faktlara yönəldim. Qobustan və Şamaxı rayon mərkəzi xəstəxanalarının publik hüquqi şəxsinin sabiq direktoru

Cinayət Məcəlləsinin 179.3.2-ci – “külli miqdar mənimsəmə” və 313-cü – “vəzifə saxtakarlığı” maddələri ilə 2025-ci ildə ittiham olunmuş, mənimsədiyi vəsaitin bir hissəsini geri qaytardığı üçün şərti cəza almışdır. Lakin bir müddət keçdikdən sonra özəl klinikalarda baş həkim və digər məsul vəzifələrdə fəaliyyət göstərmişdir.

İkinci fakt. Sumqayıt Tibb Mərkəzinin sabiq direktoru barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci –“külli miqdar mənimsəmə”, 308.1-ci –“vəzifə səlahiyyətlərindən sui-istifadə” və 313-cü – “vəzifə saxtakarlığı” maddələri ilə 2023-cü ildə cinayət işi aparılmışdır. Lakin təyinatdan kənar istifadə olunmuş və yaxud digər istiqamətlərə sərf olunmuş vəsaitin ödənilməsi əsası ilə həmin şəxs cinayət məsuliyyətindən azad edilmişdir. Sonra, 2024-cü ildə əvvəlcə TƏBİB-də icraçı direktorun müşaviri, daha sonra isə “Abşeron Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsin, – 400 mindən artıq əhalisi olan rayonun, – direktoru vəzifəsinə təyin olunmuşdur.

Bəzən islahatların avanqardı və müasir korporativ idarəetmə modellərinə uyğun olan publik hüquqi şəxslərin idarə edilməsində problemlərin yaranmasında bu cür məsələlərin və bu cür şəxslərin də, məncə, müəyyən rolu vardır. Bu faktlar açıq şəkildə göstərir ki, mövcud yanaşma real həyatda ciddi problemlərə səbəb olmamalıdır. Çünki bu, sadəcə, hüquqi məsələ deyil, bu, ictimai etimad məsələsidir, dövlət idarəçiliyinin nüfuz məsələsidir.

Məhz buna görə, hesab edirəm ki, Cinayət Məcəlləsinin 308-1-ci maddəsinin qeyd hissəsinə əlavə olunacaq 3-cü bənd bu şəkildə tamamlana bilər. Mən aşağıdakı redaksiyanı təklif edirəm: “Bu maddə üzrə əməli törətmiş və dövlət büdcəsi vəsaitinin sərəncamçısı olmuş şəxs zərəri

ödəməsindən asılı olmayaraq, gələcəkdə dövlət və özəl sektorda rəhbər vəzifə tutmaq hüququndan məhrum edilir”.

Hörmətli xanım sədr, bu təklif cəzanı sərtləşdirmək məqsədi daşımır. Bu, idarəetmə sistemində sağlamlaşdırıcı və profilaktik mexanizmin yaradılması üçün müəyyən addımlar silsiləsi ola bilər. Biz dövlət vəsaitinə münasibətdə sıfır tolerantlıq nümayiş etdirməliyik, vəzifəli şəxslər üçün daha yüksək etik və hüquqi standart müəyyən etməliyik və ən əsası, bu cür halların təkrarlanmasının qarşısını almalıyıq.

Qanun layihəsini dəstəkləyirəm və həmkarlarımı da dəstəkləməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Sizin hər biriniz yerinizdə yavaşdan danışırsınız, özünüz hiss etmirsiniz. Siz bu akustikanı nəzərə alın. Eşidilmir, kim nə, hansı bir təklif verir.

Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə.** Çox sağ olun, hörmətli xanım sədr. Mən hörmətli həmkarların səsləndirdiyi fikirlərə öz münasibətimi bildirmək istərdim.

İlk növbədə Vüqar müəllimin təklifi ilə bağlı qeyd etmək istəyirəm ki, hörmətli Vüqar müəllim, dünyanın heç bir yerində cəza əhalinin sosial rifahı ilə əlaqələndirilmir. Nəyə görə? Mən keçən çıxışımda da qeyd etdim, xüsusi vurğuladım ki, biz burada cəza siyasətini müzakirə edirik.

Cinayət Məcəlləsinin cərimə cəzasının müəyyən edilməsi məsələsinə münasibətdə, hesab edirəm ki, onun minimum əməkhaqqına və ya yaşayış minimumuna bağlanması cinayət hüququnun mahiyyəti ilə tam uyğun gəlmir. Cinayət hüququnda əsas prinsiplərdən biri hüquqi müəyyənlik və proqnozlaşdırıla bilənlikdir. Cərimə konkret məbləğlə və ya ziyanın

müəyyən misli ilə müəyyən edildikdə, – bizim Cinayət Məcəlləsinin əsas hissəsində göstərilibdir, – onda şəxs əvvəlcədən törətdiyi əmələ görə hansı məsuliyyətlə üzləşəcəyini aydın şəkildə görə bilir. Bu yanaşma həm hüquqi sabitliyi təmin edir, həm də cəzanın tətbiqində şəffaflığı artırır.

Bundan əlavə, xüsusi ilə iqtisadi və maliyyə xarakterli cinayətlərdə cərimənin ziyanın və ya qanunsuz əldə edilmiş gəlirlərin misli ilə müəyyən edilməsi daha ədalətli və effektiv mexanizmdir ki, bu gün qanunvericilik təşəbbüsünün subyekti bizə təklif edir. Bu halda cəza birbaşa cinayətin nəticəsi ilə əlaqələndirilir və qanunsuz əldə olunan iqtisadi faydanın aradan qaldırılmasına xidmət edir.

Minimum əməkhaqqı və ya yaşayış minimumu sosial siyasətin, sosial iqtisadiyyatın göstəriciləridir. Onların dəyişməsi ilə cərimə məbləğinin avtomatik dəyişməsi cinayət qanunvericiliyində sabitlik prinsipinə tam uyğun ola bilmir. Bu səbəbdən, hesab edirəm ki, cərimə cəzasının konkret məbləğlə və ya ziyanın müəyyən misli ilə müəyyən edilməsi həm hüquqi müəyyənlik, həm də ədalətli məsuliyyət prinsipinin təmin olunması baxımından daha məqsədəuyğundur.

Cərimənin konkret məbləğ və ya ziyanın misli ilə müəyyən edilməsi, qeyd etdiyim kimi, həm müəyyənlik prinsipi ilə bağlıdır, həm də onu qeyd edim ki, təklif olunan redaksiyada bu, əlavə cəza kimi göstərilir. Yəni orada əsas cəzalar göstərilibdir – azadlıqdan məhrumetmədir, məhdudlaşdırmadır. Hansı cəzanı təyin etməyi məhkəmə istintaqı zamanı artıq prosessual şəxslər, hakim, prokuror müəyyən edəcək. Yəni cəzadan söhbət getdikdə, əlbəttə ki, hakim müəyyən edəcək, əlavə cəzanı cərimə və yaxud əsas cəza kimi təyin etsin. Çünki Cinayət Məcəlləsində qeyd olunub ki, əlavə və yaxud da əsas cinayət növlərinə hansı cəza növləri

aiddir. Cərimə cəzası həm əsas cəza növü kimi, həm də əlavə cəza kimi təyin edilə bilər.

O ki qaldı hörmətli Müşfiq müəllimin səsləndirdiyi məsələ ilə bağlı – ziyanın ödənilməsi və azadlıqdan məhrum olunması. Bir daha qeyd etmək istərdim ki, bu, qanun layihəsində də göstərilib ki, burada söhbət cinayət əməlini ilk dəfə törətmiş şəxsdən gedir, ilk dəfə cinayət törətmiş şəxsin müvafiq məsuliyyətə səbəb olmuş vəsaiti tamamilə ödədiyi halda məsuliyyətdən azad olunması təklif edilir. Mən hesab edirəm ki, bu da dövlətimizin humanizm siyasətinin nümunəsi kimi nəzərdə tutulur. Çünki bundan əvvəl də VI çağırış zamanı qəbul etdiyimiz bir sıra mühüm qanun layihələri vardır ki, onlar da dekriminallaşma ilə bağlı idi. Bu, xüsusən iqtisadi cinayətlərə aid idi ki, ilk dəfə törədilmiş cinayətlər zamanı əgər ziyan tam ödənilirsə, məsuliyyətdən azad olunur və yaxud orada hər cinayətə uyğun olaraq faizlər var.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ancaq Siz dediniz, “mənim fikrimcə”, yəni bu, komitənin fikridir, elə deyilmi? Siz indi dediniz ki, “mənim fikrimcə”. Bu, komitənin fikri ola bilər.

Ancaq həmkarların hər birinin burada verdiyi təkliflərə, Əli müəllim, mən düşünürəm ki, komitədə baxılacaq. Elə deyilmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mütləq onlara baxılmalıdır. Nə isə demək istəyirsiniz, Əminə xanım? Buyurun.

**Əminə Ağazadə.** Qeyd etmək istədim. Əlbəttə ki, mən qanun layihəsini təqdim edirəm, ona görə, “fikrimcə” deyirəm. Amma burada təqdim olunan

hər bir fikir komitədə müzakirə olunur, ondan sonra qanun layihəsi plenar iclasa çıxarılır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən düşünürəm ki, bu məsələ komitədə müzakirə olunandan sonra da burada Siz təqdim edəcəksiniz. Oldu, Sizin prokuror olmağınız elə çıxışınızın əvvəlindən bilindi. Onu da nəzərə alın. Səsiniz və tembrinizlə. Mən düşünürəm ki, həmkarımızın fikirlərinə bəlkə bir az ayrı ton seçmək lazımdır. Əminə xanım, çox sağ olun.

Hörmətli həmkarlar, çıxış etmək, təklif vermək istəyən yoxdur. Biz indi qanun layihəsinin maddələr üzrə səsverməsinə keçəcəyik. Bu qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Buyurun, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Cinayət Məcəlləsində və digər 3 qanunvericilik aktında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Biz Sizin göstərişinizlə artıq ikinci dəfə bir neçə komitənin, birinci oxunuş zamanı çıxışa yazılan həmkarlarımın və bu sahənin ekspertlərinin iştirakı ilə məsələ barədə geniş müzakirə aparmışıq. Əlbəttə, fərqli fikirlər və yanaşmalar var, bu, təbiidir. Ancaq, ümumilikdə, iştirak edən həmkarlarım birmənalı olaraq bu layihənin lehinə səs verdilər və ikinci oxunuşda müzakirəyə çıxarılmasını tövsiyə etdilər.

Hörmətli xanım sədr, süni intellekt texnologiyalarından sui-istifadənin qarşısının alınması, etik çərçivədə istifadəsinin təmin edilməsi ilə bağlı birinci oxunuşda qəbul etdiyimiz qanun layihəsinə çox ciddi ictimai dəstək

var. Bu məsələ ilə bağlı hazırlanan media buraxılışlarına milyonlarca baxış var və ictimaiyyətdə bu məsələ çox geniş dəstək görübdür.

Komitədə aparılan müzakirələri burada yenidən təkrarlamamaq üçün və layihənin ikinci oxunuşunun tələbinə uyğun olaraq, sadə izahat vermək istəyirəm.

Birincisi, qeyd edim ki, Cinayət Məcəlləsinə təklif edilən hər iki yeni maddədə hər hansı yeni, yəni bu günə qədər tətbiq olunmamış bir tərkib yoxdur. Bu gün də bizim milli qanunvericilikdə təhqir, böhtan, pornoqrafik materialları hazırlama və yayma cinayət tərkibləri var.

Süni intellekt olmasın, digər ənənəvi montaj və metodlar olsun, əgər kimsə şəxsin razılığı olmadan, onun şəxsi ləyaqətini alçaldan audio və ya video material hazırlayırsa, pornoqrafik məzmun yaradırsa, bu, indi də cinayət məsuliyyəti yaradır.

Sual oluna bilər, bəs nə üçün Cinayət Məcəlləsinə indi 2 xüsusi yeni maddəni təklif edirik? Onun 2 səbəbi var. Birincisi, süni intellektlə hazırlanan materiallar hədsiz inandırıcıdır. İkincisi, bu texnologiya artıq hər kəs üçün əlçatandır və asandır. Ona görə də bizə yeni yanaşma lazımdır. Artıq bir çox ölkələrdə bu təcrübə mövcuddur. Böyük Britaniya, Almaniya və Fransa bu təcrübədən istifadə edir.

Mən düşünürdüm ki, çıxışa çoxlu yazılanlar ola bilər. Çıxışım, təqdimat bir qədər geniş idi. Ancaq bir halda 2 nəfər həmkarım yazılıbdır, ona görə hazırda təqdimatı edə də, etməyə də bilərəm.

**Sədrlik edən.** Edin.

**Kamal Cəfərov**. Cinayət Məcəlləsində birinci təklif edilən dəyişikliyə baxaq. 148-2-ci maddədə əməlin obyektiv cəhətdən cinayət tərkibi yaratması üçün 4 element var.

Birinci element – şəxsin razılığı olmadan;

İkincisi – reallığı əks etdirməyən;

Üçüncüsü – hazırlama və yayma;

Dördüncü element isə həmin materialın kütləvi formada yayılmasıdır.

Bu elementləri ona görə xüsusi ilə qeyd edirəm ki, həmkarlarımın əksəriyyətini narahat edən məsələ elə bunlarla bağlı idi.

Birinci elementə, şəxsin razılığı məsələsinə baxaq. Çünki bəzi həmkarlarım bu ifadənin mətndən, dispozisiyadan çıxarılmasını təklif edirlər. Birincisi, bu, konstitusion məsələdir. Konstitusiyamızın 32-ci – "Şəxsi toxunulmazlıq hüququ" maddəsində "şəxsin razılığı olmadan" ifadəsi mövcuddur. İkincisi, bu ifadə məhz bu kontekstdə həm Avropa İttifaqının 2024-cü ildə qəbul etdiyi qanunda, – onlar "act" deyir, – həm də xüsusi ölkə təcrübələrinə baxsaq, Fransa təcrübəsində var. Fransanın cinayət məcəlləsində açıq formada qeyd edilir ki, şəxsin razılığı olmadan onun sözlərini və ya görüntüsünü süni intellekt vasitəsi ilə dəyişdirərək paylaşmaq 2 il həbs və ya 45 min avro cərimə ilə nəticələnir.

Mən "şəxsin razılığı olmadan" ifadəsini formal izah etdim, ancaq mahiyyət etibarı ilə, əksinə, "şəxsin razılığı olmadan" ifadəsinin bu maddənin dispoziyasında olması həm insan hüquqlarının daha yaxşı qorunmasına, həm də media azadlığının, yaradıcılığının qorunmasına xidmət edir. Yəni əgər bir şəxsin razılığı varsa, süni intellektlə reallığı əks etdirməyən materialları hazırlayıb paylaşa bilər. Başa düşürəm ki, burada praktiki tərəf maraqlıdır. Çünki bu razılıq necə olacaq, kağızda yazılacaq və sair. Bu məsələni asanlaşdırmaq üçün Cinayət-Prosessual Məcəlləsində də yeni bir dəyişiklik təklif edilir. Elə məhz bu qanun layihəsindədir.

Ola bilər ki, həqiqətən, sizin razılığınız olmadan bir material hazırlanıb. Bəlkə də sizin xoşunuza gəlib, bəlkə də gəlməyib. Siz ondan şikayət etmədiyiniz müddətdə heç kimlə bağlı cinayət işi başlanıla bilməz. Cinayət-Prosessual Məcəlləsinin 37-ci maddəsində təklif edilən dəyişikliyin məğzi odur.

İkinci məsələ ən çox müzakirə olunan məsələlərdən biridir. Elə “reallığı əks etdirməyən” ifadəsi idi. Bəzi həmkarlarım təklif etdilər ki, “reallığı əks etdirməyən” ifadəsini çıxaraq. Əvəzinə “şəxsin nüfuzuna xələl gətirən, böhtan, təhqir, şantaj və ya digər zərərli məqsəd” ifadəsini qoysaq, biz qarşıya qoyulan hədəfə çatmayacağıq.

Əgər maddənin dispozisiyasına konkret xüsusi məqsədlər, qeyd etdiyim məsələlər əlavə edilsəydi, bu, cinayətin tərkibini daraldacaqdı. Təcrübədə süni intellektlə yaradılan “deepfake” materialları çox vaxt subyektiv olaraq zərərli məqsəd olmadan, məsələn, “zarafat”, “sosial eksperiment”, “trendə qoşulmaq” və ya “siyasi satira” adı altında yaradılır və yayılır. Əgər qanunda məqsəd şərtidirsə, zərərçəkmiş şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatına ciddi ziyan dəysə belə, təqsirkar deyəcək ki, “mənim məqsədim şantaj deyildi, sadəcə, əyləncə idi”, bunu deyərək məsuliyyətdən boyun qaçırmaq istəyə bilər.

İkincisi, bu ifadə daha çox süni intellekt texnologiyasının spesifikası ilə bağlıdır. Yəni bu yanaşma süni intellekt texnologiyalarının təbiətini düzgün dərk etməkdən irəli gəlir. Reallığı əks etdirməyən, süni intellektlə yaradılmış bir materialın informasiya məkanına düşməsi qısa müddətdə nəzarətdən çıxaraq zəncirvari reaksiya, yəni virallıq yaradır. Əməlin ilkin hədəfindən asılı olmayaraq, kütlənin onu necə qəbul edəcəyi və necə istifadə edəcəyi proqnozlaşdırıla bilməz. Buna görə də qanunverici

məqsəddən asılı olmayaraq, qanunsuz yaranmış alətin özünü və onun yaradılma, yayılma prosesini kriminallaşdırmaqla preventiv bir xətt çəkir.

Ona görə "reallığı əks etdirməyən" ifadəsi bu kontekstdə və formada həm normayaratma texnikası, həm də mütərəqqi hüquq siyasəti baxımından tamamilə haqlıdır, strateji cəhətdən çox dəqiqdir.

Cinayət Məcəlləsinə təklif edilən digər maddə ilə bağlı məsələnin də, hesab edirəm ki, mahiyyəti aydındır. Şəxsin razılığı olmadan pornoqrafik və ya seksual məzmunlu materialların hazırlanması ilə bağlıdır. Komitə iclasında belə bir fikir səsləndirilmişdi ki, bəs elə çıxır ki, şəxsin razılığı olarsa, onda süni intellektlə pornoqrafik məzmunlu material hazırlamaq olar? Cavabı odur ki, o da olmaz, əgər şəxsin razılığı olarsa, ya özü iştirak edərsə, hazırda bu 242-ci maddə – "Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma" maddəsi ilə məsuliyyətə səbəb olur və hazırda da qüvvədədir.

Düşünürəm ki, Cinayət Məcəlləsi ilə bağlı təklif edilən dəyişikliklərin mahiyyəti aydındır. Satira, parodiya, şantaj, böhtan və saxtakarlıq heç bir halda "yaradıcılıq azadlığı" kimi müdafiə oluna bilməz, heç kimin şərəf və ləyaqəti alçaldıla bilməz, lağlağı kontent məqsədi ilə heç kim onlayn terrora bəraət qazandıra bilməz.

Çox sağ olun.

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun, Kamal müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılmışdır. Komitənin sədri Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Hörmətli Kamal müəllim məsələ ətrafında... Əslində, 1 aya yaxın müddət ərzində komitələrdə, o cümlədən plenar iclasda həm birinci oxunuşda, həm də ikinci oxunuşda, hörmətli sədr, mən istəyərdim, bura əlavə edim, dünən Sizin rəhbərliyinizlə keçirilən planlaşma iclasında da bu məsələ üzərində geniş dayanıldı. Parlament üzvləri üçün maraqlı, həm də əhəmiyyətli olan oradakı, təbii ki, məxfi olmayan iki fikri bölüşək.

1. Bu məsələnin geniş aydınladılmasına, izahına, cəmiyyətə təqdimatına ehtiyac var. Çox önəmlidir ki, bu, qəti şəkildə, birinci, media azadlığına, ikinci, süni intellektlə yaradıcılıq azadlığına qarşı deyil, əsla. Qanuni fəaliyyətlər bütün başqa sahələrdə olduğu kimi, burada da tanınır. Lakin Kamal müəllim o vurğuları çox dəqiqliklə qoydu ki, hansı məsələləri tənzimləyir.

2. Dünən o planlaşma iclasından deyəcəyimiz fikir süni intellekt sferasında hörmətli Mehriban xanımın da məlum rəqəmsal şuraya rəhbərlik etməsi fonunda ki, cənab Prezident bu sahəni növbəti dövrün həm də iqtisadi idarəetmə, dövlət kursunun əsas aparıcı xətti elan edib, qanunvericilik sistemi də bununla sinxron olacaqdır. Hətta dünən Siz çox mühüm bir açıqlama da verdiniz ki, bu istiqamətdə müəyyən hazırlıqlar da var. Ona görə də bizim əlavə olaraq demək istədiyimiz məsələ nədir?

Bu, yalnız dövlət orqanlarına, hakimiyyət təmsilçilərinin hüquqlarına və mənafelərinə bağlı məsələ deyil. İstisna yalnız bəlli şəxsləri nəzərdə tutmur. Qanun, bütövlükdə, vətəndaşlarımız üçündür. Onun hüquqi qüvvəsi hamıya şamil olunur. Ona görə də bu, bütün vətəndaşlarımızın hüquq və mənafelərinin, azadlıqlarının, şərəf və ləyaqətinin qorunmasına xidmət edir. O cümlədən, bəli, həqiqətdir, çox təəssüflər olsun ki, əgər bir

qradasiya edib Avropa ölkələrini ayırsaq, bu gün dünyada hansı aparıcı süni intellekt platformaları var, onlardan faydalanaraq daha çox Azərbaycana qarşı bu hibrid təhlükələr süni intellekt əsaslı texnologiyalarla da sinxronlaşdırılaraq baş verir. Bu, dəqiqdir. Bu, inkaredilməzdir. Buna çox təəssüf edirik ki, hərbi meydanda məğlub olanlar öz potensiallarını indi bu sferaya daşıyıblar.

Hörmətli Əli müəllimin rəhbərliyi ilə digər komitələr ki Sizin tapşırığınızla orada iştirak edirdilər, üstündə ən çox dayanılan məsələlərdən biri "reallığı əks etdirməyən" terminidir. Kamal müəllim qeyd etdi, cinayət tərkibinin olması üçün 4 mühüm element lazım idi, şəxsin razılığı olmasın, onun səsindən və görüntüsündən klonlaşma vahidi kimi istifadə etsinlər, onu hazırlasınlar, yaysınlar, sonra kütləvi platformalarda da yaysınlar. "Reallığı əks etdirməyən" termini ətrafında diskussiyalar ona görə gedir ki, daha çox biz belə başa düşürük, bu "deepfake", yəni Tramp dünyada məşhurlaşdırdı, bu "fakenews" – saxta məlumatdır, bunu hamı başa düşür. Bəs "deepfake" nədir? Ona görə də bu məsələ ilə bağlı deyilir ki, bəlkə bu ifadəni olduğu kimi qanunvericilik sistemimizə gətirək. Bu halda ikinci bir sual çıxır, cənab Prezidentin haqlı çağırışı, dilimizin təmizliyi, şəffaflığı, kənar terminlərin yeri gəldi-gəlmədi qanunvericilik sisteminə və ümumiyyətlə, dilimizə gəlməməsi fonunda. Başa düşüləndir, "linqvistlik", "suverenlik" terminlərini desək, – mən dünən də bunu həmin iclasda söyləmişdim, – bu iki terminin ikisi də bizimki deyil. Siz söylədiyiniz kimi, bunun böyük bir tarixi var. Hətta müəyyən bir dövrdə bəlkə bizdə olub, artıq sonradan neologizm kimi, dediniz, dövriyyəyə yenidən qayıdıb.

Ona görə də çox ümidvarıq ki, gələcək dövrdə bu məsələ ətrafında süni intellekt dili getdikcə formalaşdığına görə o ifadənin də qarşılığı

tapılacaqdır. Ona görə indiki dövrdə bu layihə çox mütərəqqidir, çox vacibdir. Hətta deyərdim, vətəndaş və insan hüquq və azadlıqlarının, həm də dövlət, millət təhlükəsizliyinin ayrılmaz hissəsidir. Çünki bir daha söyləyirəm ki, ən böyük təhdidlər bu istiqamətdən gəlir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim. Siz də ətraflı məlumat verdiniz, çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, yadınıza salıram. Qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi müzakirəyə keçirik, yazılanlar var. Sadəcə, təklif edirəm ki, 5 dəqiqəyə qədər. Olarmı? Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hər iki komitədə geniş şəkildə müzakirə və ətraflı, gözəl təqdimatdan sonra bir neçə fikri də biz səsləndirmək istəyirik. Doğrudan da, bu qanun çox vacib qanundur. Zahid müəllim bu gün qeyd etdi, bu, əslində, insanların hüquq və azadlıqlarının

qorunmasına xidmət edən bir qanundur. Süni intellektin nailiyyətlərindən, düzdür, ölkəmizdə kənd təsərrüfatında, sənayedə, hərbi sistemdə, təhsildə, səhiyyədə və digər sahələrdə istifadə olunur. Amma əfsuslar olsun, bir çox hallarda biz görürük ki, süni intellektin ortaya çıxardığı o qabaqcıl nailiyyətlər daha çox informasiya texnologiyalarına, mədəniyyətə və siyasətə inteqrasiya edir. Birinci, buradan başlanır. Vətəndaşların orada hüquqlarının, müəllif hüquqlarının pozulması, onların müəllifliyinin və yaxud siyasi həyatının başqa formada cəmiyyətə çatdırılması və xüsusi ilə də əxlaqı və mənəviyyatı aşılanmış, qadın paltarında Azərbaycandan qaçan bir qrup insan, o cümlədən başqa-başqa aşağılayıcı ad altında sığınacaq alan insanlar bu gün bu süni intellektdən Azərbaycan dövlətinə, Azərbaycan Ordusuna, Azərbaycan xalqına, ölkəmizə qarşı olmaz iftiralar, olmaz yalanlar sərgiləyirlər. Bu süni intellektdən istifadə edərək müxtəlif insanların şəkillərini qoymaqla, saxtalaşdırmaqla bu addımı atırlar.

Bu qanunun yaxşı cəhətlərindən biri ondan ibarətdir ki, bu, həm beynəlxalq hüququn tələblərinə cavab verən qanundur, həm də Avropa İttifaqına, eləcə də Avropa Şurasına daxil olan ölkələrin qanunvericiliyinə uyğun şəkildə hazırlanmışdır. Yəni sabah həmin ölkələrin ərazisində yaşayan hər hansı bir şəxs hər hansı bir Azərbaycan vətəndaşının hüququnu pozduqda, onun haqqında bu və ya digər şəkildə cinayət məsuliyyəti və yaxud digər inzibati məsuliyyətlərlə bağlı məsələ qaldırıldıqda həmin ölkə deyə bilməsin ki, bizdə belə bir qanun yoxdur və biz bunu həyata keçirə bilmərik. Ona görə də onların elə özlərinin apardığı siyasi yolla bu məsələlərdən ciddi şəkildə biz istifadə etməliyik və çalışmalıyıq ki, bu məsələlərin həm gənclər, həm də uşaqlar arasında geniş yayılmasının da qarşısını alaq. Bunun ən böyük təsiri gənclərədir,

uşaqlaradır. Onlar da bilavasitə bu süni intellektdən istifadə edirlər və nəticə etibarı ilə psixoloji cəhətdən onlara çox böyük təsir göstərir. Mən hesab edirəm ki, bu, həm də uşaq hüquqlarının qorunmasıdır, gənclərimizin, tələbələrimizin qorunmasıdır. O baxımdan qanun layihəsi mükəmməldir və qanun layihəsinə səs verəcəyik. Həmkarlarımdan da səs vermələrini xahiş edirəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media mənsubları. Hörmətli xanım sədr, bildiyiniz kimi, süni intellektlə bağlı qanunda edilən dəyişikliklərlə bağlı mövqeyimi birinci oxunuşda açıq və geniş şəkildə bildirmişəm. Həmçinin hörmətli Əli müəllim Hüseynli ilə bu məsələ ətrafında fikir mübadiləmiz olub və ikinci oxunuşda müzakirəsində də, yəni komitə səviyyəsində iştirak etmişəm. Layihənin vacibliyini və aktuallığını nəzərə alaraq ona müsbət səs verirəm.

Bununla yanaşı, hörmətli xanım sədr, bir mühüm təklifimizi diqqətinizə çatdırmaq istəyirəm. Xahiş edirəm, parlamentdə aidiyyəti şöbəyə və ya müvafiq komissiyalardan birinə göstəriş verəsiniz ki, qanunun tətbiqindən sonra bu sahədə davamlı və sistemli monitorinq aparılsın. Qanunun icrası prosesində ortaya çıxan boşluqlar, açıq qalan məqamlar vaxtında müəyyən edilərək çevik şəkildə qanunvericilik səviyyəsində aradan qaldırılsın. Çünki əsas məqsədimiz yalnız tənzimləmə və məhdudiyyət deyil. Elə etməliyik ki, bu qanun süni intellektin inkişafına mane olmasın, əksinə, onun yaradıcı və innovativ sahələrdə də tətbiqini stimullaşdırsın.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Əslində, yaxşı bir təklifdir. Ancaq mən də çox böyük məmnunluqla demək istəyirəm ki, Əli Hüseynlinin rəhbərlik etdiyi komitədə artıq elə bir kadr var. Kamal Cəfərov artıq bir neçə zamandır elə bu məsələ ilə məşğul olur. Mən düşünürəm ki, bununla bağlı daha da geniş işlər aparmaq lazımdır.

Hikmət Məmmədov. Hikmət müəllim, buyurun.

**Hikmət Məmmədov**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, biz çox aktual bir məsələyə həsr olunmuş qanun dəyişiklikləri edirik. Mən hər şeydən öncə, hörmətli xanım sədr, Sizə təşəkkür edirəm ona görə ki, Sizin tövsiyəniz ilə bir neçə gün bundan əvvəl bir neçə komitənin məhz bu dəyişikliklərlə bağlı birgə iclası keçirildi. İclasa süni intellekt sahəsində yüksək peşəkarlar, sahəni, beynəlxalq hüququ dərindən bilən qonaq hüquqşünaslar dəvət olunmuşdular və komitədə bu məsələlərin hər biri, hətta ifadələr belə müzakirə edildi. Mən də həmin komitələrin birgə iclasında çıxış etdim. Ancaq düşünürəm ki, yenidən çıxış etmək zərurəti var. Bəzən suallar yaranır. Kamal müəllim çox gözəl təqdim etdi və ictimai diqqətin fokuslandığı ayrı-ayrı terminləri çox yaxşı şərh etdi, ona görə həmkarıma təşəkkür edirəm.

Bax, nəyə görə, məsələn, biz pornoqrafik və seksual xarakterli materiallar məsələsini qanunvericiliyə gətiririk? Ona görə ki, ən çox, bax, bu seqmentlər üzərindən cəmiyyətimizin dəyərləri şantaj edilir. Süni intellekt vasitəsi ilə ən çox istehsal edilən və ictimai dəyərlər üzərində terror yaradan hallar məhz bu komponentlər üzərindən baş verir. Ona görə mənə elə gəlir ki, burada hüquq texniki baxımdan dəqiqləşir və cinayət məsuliyyəti yaradan halların ünvanını çox dəqiq göstərir. Qaldı ki, əlbəttə, Azərbaycan hüquqi dövlətdir, Azərbaycanda demokratik təfəkkür

həddindən artıq dərindir. Ona görə də bəzilərində bu məsələni süni intellekt azadlığına, insan hüquqlarına, insanın yaradıcılıq qabiliyyətinə, –guya ki, süni intellektdən nəsə yaradacaqlar, – ona qarşı hesab edən, əlbəttə, az da, marginal da olsa, düşüncə tərzi də var. Amma bütün hallarda nəzərə almaq lazımdır ki, burada, sadəcə, cəmiyyətin dəyərlərinin qorunmasından söhbət gedir.

Biz süni intellekt deyəndə yaradıcılığın texniki və qeyri-mənəvi vasitələrlə motivasiya və istehsal edildiyini görürük. Çünki süni intellektin mənəviyyatı yoxdur, amma insan mənəviyyat hadisəsidir.

Hörmətli xanım sədr, mən 2014-cü ildə bir monoqrafiya yazmışdım. Onda "homosapiens" mərhələsindən sonra "homoinformatikus" və təzə bir termin də işlətmişdim, "homohibridikus" mərhələsi gələcək. Amma inanın, o vaxt mən gözləmirdim ki, belə qısa müddət sonra "homosapiens" "homohibridikus"a çevriləcəkdir. Cəmi 10–12 il keçdi və bu gün, buyurun, süni intellekt olan, "homohibridikus" dediyimiz hibrid insan budur. Ona görə əgər süni intellekt vasitəsi ilə istehsal olunan bu cür terror hadisələri bizim mənəviyyatımıza təsir göstərirsə, dəyərlərimizi deqradasiyaya məruz qoyursa, biz onu mənəvi komponentlərlə cilovlaya bilmərik. Demək, onu ancaq və ancaq hüquqla cilovlaya bilərik ki, qəbul edilən qanunlarda düzəlişlər də buna xidmət edir.

Hörmətli xanım sədr, mən bir daha təşəkkür edirəm. Düşünürəm ki, bu, hələ başlanğıcdır. Çünki süni intellekt cəmiyyətimizə, ictimai münasibətlər sistemimizə daha çox müdaxilə etdikcə biz daha çox hüquq yaradıcılığı ilə məşğul olmalıyıq ki, o münasibətləri hüquqi baxımdan tənzimləyək.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Əvvəla, təşəkkür edirəm ki, komitə iclasına mən də dəvət olunmuşdum. Orada bu məsələ çox geniş müzakirə olundu. Orada təklif verənlərdən biri də mən idim ki, “reallığı əks etdirməyən” ifadəsi normadan çıxarılsın, yaxud onun yerinə yazılsın: “şəxsin şərəf və ləyaqətini alçaldan, onun işgüzar nüfuzuna ziyan vuran foto, video və audio materialları hazırlama cinayət məsuliyyəti yaradır”. Niyə? Ona görə ki, mən orada da çıxışımda geniş söylədim, bizim Cinayət Məcəlləsinin 14-cü maddəsi var, 14-cü maddədə “Cinayətin anlayışı” verilir, orada qeyd olunur ki, “cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir”. Ona görə mən orada qeyd etdim ki, bu, xüsusi ittihamlı iş olduğuna görə hər kəs özü müəyyənləşdirməlidir, bu onun şərəf və ləyaqətinə zərər vurur, ya vurmur. Bu halda məhkəməyə müraciət etməlidir.

Misal üçün, “reallığı əks etdirməyən”, mən orada başqa misallar da çəkmişdim. Misal üçün, reallığı əks etdirmir. Mənim 2 övladım var, 2 övladımla bir yerdə harasa getmişəm. Kimsə süni intellektlə yaradır ki, Qüdrət Həsənquliyev 3 övladı ilə harasa gedir. Misal üçün, reallığı əks etdirmir. Amma burada mənim şərəf və ləyaqətimə, işgüzar nüfuzuma toxunan heç nə yoxdur. Mənim razılığım olmadan bu yayılır və reallığı da əks etdirmir. Mən buna görə həmin şəxs barəsində cinayət işi başlanması ilə bağlı xüsusi ittiham qaydasında müraciət edə bilərəmmi? Bu, əlavə vaxt itkisidir, məhkəmənin vaxtının alınmasıdır və sair. Ona görə də bir çox

hallarda cinayət əməlinin vurduğu zərər cinayət tərkibinin əlaməti kimi normanın özündə göstərilməlidir.

Mən, əslində, bu məsələ ilə bağlı çıxış etmək istəmirdim. Biz onsuz da indi Cinayət Məcəlləsinin 282.1-ci maddəsində dəyişiklikləri də növbəti məsələlərdə müzakirə edəcəyik. Ona görə mən, yeri gəlmişkən, toxunmaq istəyirəm. Orada da qeyd olunur ki, "əməli süni intellekt texnologiyalarından, habelə xüsusi proqram təminatlarından istifadə etməklə törətmə". Buna görə təklif edirəm ki, Əli müəllim bunu müvafiq icra hakimiyyəti orqanı ilə müəyyən eləsin.

Bizim Cinayət Məcəlləsinin 61-ci maddəsində cəzanı ağırlaşdıran hallar var. Orada 61.1.10-cu maddədə qeyd olunur ki, "cinayətin odlu silahdan, partlayıcı vasitələrdən və ya digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə etməklə törədilməsi" cəzanı ağırlaşdıran hal hesab olunur. 61.3-cü maddədə qeyd olunur ki, "Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində cinayət tərkibinin əlaməti kimi nəzərdə tutulmuş cəzanı ağırlaşdıran hal cəza təyin edilərkən təkrar nəzərə alına bilməz".

Biz hər dəfə əməlin törədilməsinin üsul və vasitələrinin ağırlığına görə... Yəni hesab edirəm ki, bu halda da, bəli, son vaxtlar baş verən tendensiyanı nəzərə alaraq, cinayətin burada qeyd olunduğu kimi, "süni texnologiyalardan və habelə xüsusi proqram təminatlarından istifadə etməklə" törədilməsi xüsusi təhlükəli üsuldur.

Biz elə bu gün İranda baş verən hadisələri müşahidə edirik ki, orada, bax, bu hadisələrin baş verməsində, tutaq, şəhərin ümumi təhlükəsizlik sisteminə qoşulur və məlumatlar əldə olunur, sonradan hansısa əməliyyatlar həyata keçirilir, insanlar qətlə yetirilir və sair.

Bu baxımdan, əlbəttə, bu üsullardan istifadə təhlükəli üsul kimi qeyd olunmalıdır. Amma hər dəfə bunu normaya daxil etmək əvəzinə, qeyd elədim ki, biz bunu 61-ci maddəyə daxil edək, bu formada cinayətin törədilməsi ağırlaşdırıcı hal hesab olunur. Bu, daha doğru olardı.

Sonda bir məsələyə də toxunmaq istəyirəm. Hörmətli Əminə xanım qeyd etdi ki, cəzanın həcmi müəyyən olunarkən, əslində, ölkənin iqtisadi vəziyyəti, əhalinin orta gəlir səviyyəsi, sosial rifah göstəriciləri nəzərə alınmır. Bu, bir az həqiqətə uyğun deyil. Ona görə mən də bu məsələni dəfələrlə qaldırıram. Ona görə dünyanın müxtəlif ölkələrində cərimələrin həddi ölkənin inkişaf səviyyəsinə görə fərqli olur. Bu, mütləq nəzərə alınmalıdır. Əgər biz qanunverici olaraq öz fəaliyyətimizdə elmilik prinsipini əsas götürürüksə, bu, hüquq elminin tələblərindən biridir, bəs biz niyə cərimələri 1 milyon, 2 milyon təyin etmirik? Qeyri-realdır. Ona görə ki, cəza çox olanda onun icrasını həyata keçirmək mümkün olmur, az olanda da onun...

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, indi biz qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Bu qanunda 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam.

Hikmət müəllim, nəyə yazılmısınız?

**Hikmət Məmmədov.** Qanunda etdiyimiz dəyişiklikdə qeyd olunur ki, hüquqlarla bağlı şərh doğru olmalıdır. Yəni əgər kiminsə 2 uşağı varsa, süni intellekt vasitəsi ilə o, 3 uşaqlı kimi təqdim olunursa, burada hüquqda məcburetmə yoxdur. O sizin passiv hüququnuz olur və şikayət etmək, ya etməmək artıq sizin şəxsinizə buraxılır. Ona görə də bunu israrla tələb etmək ki, “reallığı əks etdirməyən” hal qanundan çıxarılsın, məncə, bu, doğru deyil.

Sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsi ilə bağlı çıxışa vaxtında yazılın. Özü də hansı məsələdən söhbət gedirsə, onunla bağlı danışmaq lazımdır.

Qüdrət müəllim, Siz dediyiniz, Əminə xanımın bundan əvvəlki məsələ ilə bağlı fikrinə mən məcbur olub qayıtdım. Elə onda da yazılıb sözünüzü deyə bilərdiniz. Ancaq yenə öz fikrinizi bildirdiniz. Çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihəsinə maddələr üzrə səs verməliyik. Birinci, 2 maddəyə səs verəcəyik. Buyurun, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Bu 2 maddə qəbul edildi.

İndi isə xahiş edirəm, 3-cü və 4-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu bizim gündəliyimizin 6-cı məsələsidir. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Yenə də, Kamal müəllim, Siz təqdim edirsiniz. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. İnzibati Xətalar Məcəlləsində 4 mühüm istiqamət üzrə də dəyişikliklər təklif edilir. Birinci oxunuş zamanı kifayət qədər geniş məlumat verilib və müzakirələr aparmışıq. Sadəcə, dəyişikliklərin istiqaməti haqqında qısa məlumat vermək istəyirəm.

Birinci istiqamət dövlət maliyyəsinə nəzarət, elektronlaşma ilə bağlıdır. Bu, əsasən, Əminə xanımın məruzə etdiyi məsələ ilə bağlıdır.

İkinci istiqamət uşaq hüquqlarının qorunması və təhlükəsizliyin təminatı ilə bağlıdır. Bildiyiniz kimi, cari il martın 3-də biz “Uşaq hüquqları haqqında” Qanunu üçüncü oxunuşda qəbul etdik. Təklif olunan dəyişikliklər həmin ana qanundan irəli gəlir, uyğunlaşdırma xarakteri daşıyır.

Üçüncü istiqamət süni intellektdən etik çərçivədə və məsuliyyətlə istifadə ilə bağlıdır. Bu, daha çox süni intellekt materiallarının müvafiq nişanlanma olmadan paylaşılması ilə bağlıdır.

Dördüncü istiqamət isə fərqli-fərqli, misal üçün, icra məmurları, yol hərəkəti qaydaları ilə bağlı təklif edilən dəyişikliklərlə əlaqədar uyğunlaşdırma xarakterli məsələlərdir.

Birinci oxunuş zamanı hər hansı konkret təklif və hazırda mətndə hər hansı bir dəyişiklik olmadığı üçün qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. İkinci oxunuşda hələ təkliflər veriləcək, qulaq asacağıq.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Azay Quliyev. Azay müəllim, buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli xanım sədr, mən İnzibati Xətalar Məcəlləsində təklif olunan 388-3-cü maddə ilə bağlı bir təklif irəli sürmək istəyirəm. Hörmətli Kamal müəllimin dediyi kimi, burada söhbət süni intellekt texnologiyasından istifadə edilməklə hazırlanan materialların

nişanlanma olmadan bilə-bilə yayılmasına görə inzibati məsuliyyət nəzərdə tutulmasından gedir. Bu məsuliyyət təxminən 80 manatdan 150 manata qədər cərimə sanksiyası ilə müəyyən edilir.

Hörmətli xanım sədr, bilirsiniz ki, əvvəlki məsələni, yəni bundan əvvəl müzakirə etdiyimiz Cinayət Məcəlləsində təklif olunan dəyişikliklərlə bağlı məsələni də, eyni zamanda, 388-3-cü maddəni də biz ətraflı müzakirə etdik. Sizin dəstəyinizlə keçirilən komitələrarası birgə iclasda müvafiq mütəxəssislərin iştirakı ilə də bu məsələ müzakirə edildi. Yeri gəlmişkən, belə bir faydalı müzakirə təşkil edildiyinə görə Sizə də təşəkkürümü bildirmək istəyirəm.

Məsələ burasındadır ki, bu yeni maddə, əlbəttə ki, süni intellekt texnologiyasının genişlənməsinə, tətbiqinə hər hansı bir formada maneçilik törətmir. Sadəcə olaraq, belə bir müddəanın gətirilməsi ilə biz şəffaflığı artırır, eyni zamanda, vətəndaşlara bəri başdan imkan yaradırıq ki, onlar öncədən onlara təqdim olunan kontentin süni intellekt vasitəsi ilə hazırlanmasını, yəni bunun reallığı əks etdirmədiyini öncədən bilsinlər.

Yeri gəlmişkən, onu deyim ki, bu maddənin dispozisiyası digər ölkələrlə müqayisədə daha yumşaqdır, yəni cərimə sanksiyası nisbətən daha azdır. Həm də nəzərə almaq lazımdır ki, burada əvvəlki qanunvericilikdən fərqli olaraq xüsusi proqram tətbiq etməklə hazırlanan məhsullara məhdudiyyət, yaxud da inzibati məsuliyyət müəyyənləşdirilmir. Bu da, hesab edirəm, ona görə belə formada hazırlanıb ki, insanlar maariflənsinlər, müəyyən çəkindirici xarakter daşısın və öncədən bilə-bilə bu, süni intellekt vasitəsi ilə hazırlanıbdır, onu mütləq nişanlamadan paylaşmasınlar. Bu, məsələnin müsbət tərəfidir. Təbii ki, buna mən səs verəcəyəm.

Amma mənə belə gəlir ki, hörmətli xanım sədr, burada digər məqam nəzərdən qaçıbdır. Ona görə nəzərdən qaçıb ki, biz burada yalnız bu materialları bilə-bilə yayanları inzibati məsuliyyətə cəlb edirik. Amma bu məhsulları hazırlayıb yayanları biz məsuliyyətə cəlb etmirik. Çünki bilirsiniz ki, bu məhsul mövcud olmalıdır ki, kimsə bunu yaysın. Düzdür, müzakirə zamanı belə bir fikir oldu ki, bəlkə kimsə onu özünün istifadəsi üçün hazırlayırsa, niyə biz buna məsuliyyət qoymalıyıq? Yəni bu da həqiqətdir.

Ona görə mənim təklifim ondan ibarətdir ki, bunu hazırlayan və yayana ayrıca bir inzibati məsuliyyət müəyyənləşdirək. Yəni onun üzərinə məsuliyyət qoyulsun ki, bu məhsulu hazırlayan zaman sən mütləq bunu süni intellekt texnologiyasından istifadə edilməklə hazırlayıb nişanını qoy. Bu baxımdan da mənə belə gəlir ki, biz bu fərqi qoymaqla həm də burada bir balans yaranır. Mən sizə deyim ki, indi bilirsiniz, süni texnologiyalar kifayət qədər inkişaf edibdir, yüzlərcə, minlərcə belə imkan var, gündə yüzlərcə belə yeni məhsul hazırlanır. Hətta bəzən fiziki şəxslərlə yanaşı, hüquqi şəxslər də, şirkətlər də öz məhsullarını hazırlayırlar, paylaşırlar və orada hər hansı bir nişanlanma qoymurlar.

Bilirsiniz, indi burada hörmətli Kamal müəllim də qeyd etdi, bir çox qanunvericilikdə və Avropa İttifaqının süni intellektlə bağlı qəbul etdiyi aktın 25-ci maddəsinin 2-ci və 4-cü yarımbəndində də məhz bu cür texnologiyadan istifadə edilməklə hazırlanan məhsullara da belə bir nişanlanma öhdəliyi qoyulubdur. Ona görə də mən düşünürəm ki, biz mövcud maddəyə bir cümlə əlavə etməliyik. Cümlə təxminən belə səslənir: “Bu cür materialları müvafiq nişanlanma olmadan hazırlayan və yayan fiziki şəxslərə 150 manatdan 300 manatadək, hüquqi şəxslərə 500 manatdan 1000 manatadək cərimə sanksiyası nəzərdə tutulur”.

Prinsip etibarı ilə cərimələrin ağırlaşmasının tərəfdarı deyiləm. Amma bunu ona görə təklif edirəm, bu, bir növ həm müəyyən mənada şəffaflığı artıracaq, etik qaydalara əməl etməklə bağlı qanunvericiliyi təkmilləşdirəcək, həm də, bilirsiniz, belə bir məsələdir ki, bu, bir mədəniyyətdir. Nişanlama bir mədəniyyət halına gəlməlidir ki, hamı buna əməl etsin.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Hörmətli sədr, mən bir məsələyə, sadəcə, diqqət yetirmək istədim. Bu bizim komitə müzakirələrində də qeyd olundu. Burada süni intellektdən istifadə etməklə hansısa videomaterial hazırlamaq, əslində, hazırlamaq cinayətə hazırlıq kimi nəzərdə tutulur. Ona görə hazırlamaq məsuliyyət yaradır. Yoxsa, əlbəttə, – komitə iclasında da qeyd olundu, – əgər kiminsə onu yaymaq məqsədi yoxdursa, tutaq ki, öz kompüterində nə isə bir iş görürsə, bu, başqa bir məsələdir. Amma bir də var, burada hazırlıq işlərindən söhbət gedir ki, o, hazırlaşır. Bir çox hallarda cinayətə hazırlıq həm də cinayət məsuliyyəti yaradır. Baxmayaraq, onun qarşısı alınır, tutaq ki, həmin cinayət baş vermir. Yəni istərdim ki, bizim deputat həmkarlarımız da bunun fərqində olsunlar.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Onun hazırlanması bir səbəb kimi olur. O da onun nəticəsidir. Səbəb, nəticə.

Kamal müəllim, buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Əgər vətəndaş evində şəxsi məqsədləri üçün əyləncəni, texnologiyanı hiss etmək və

qrafik dizayn bacarıqlarını inkişaf etdirmək istəyirsə, onun yaratdığı materialda cinayət tərkibi yoxdursa, – yəni biz inzibati xətalara aid olan dəyişiklikləri müzakirə edirik, – biz Cinayət Məcəlləsində qeyd etdiyimiz kimi, şəxsin hər hansı bir razılığı olmadan, səsindən, görüntüsündən, videosundan istifadə edilərək reallığı əks etdirməyən material yoxdursa, cinayət tərkibi yoxdur və bu, qanun pozuntusu deyil. Yəni bu təklif edilən dəyişikliklərə əsasən cəmiyyət və fərdlər üçün zərər nə vaxt baş verir? Dezinformasiya, reputasiyaya zərər vurmaq məqsədi ilə həmin material kütləvi şəkildə həqiqi kimi nişansız təqdim edildiyi anda baş verir. Qanunda təklif etdiyimiz dəyişiklik də məhz zərərverici nəticənin qarşısını almağı hədəfləyir. Məqsəd süni intellektdən istifadəni cəzalandırmaq deyil, sadəcə, inzibati xətalar məqsədləri üçün şəffaflığı təmin etməkdir. Yəni texnologiyadan istifadə et, onsuz da hazırda “Facebook”dan, “İnstagram”dan, “TikTok”dan, “YouTube”dan istifadə edən həmkarlarım bilir ki, hər hansı bir materialı dərc etməmişdən qabaq sizdən soruşulur, “bu material süni intellekt vasitəsi ilə hazırlanıb, yoxsa yox?” Siz, sadəcə, o düyməni kliklədiyiniz anda kifayət edir ki, onu göstərin.

Klassik mediada və qanunvericilikdə analoji mövcud yanaşma var. Maddədə “bilə-bilə” ifadəsi məhz bu qəsdi və məsuliyyət subyektini dəqiqləşdirir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siz deyirsiniz ki, onun heç bir zərəri yoxdur, bunu özü üçün hazırlayır. Onun mənəviyyatına uyğun ola bilər. Axı, burada meyar da olmalıdır. Mənə elə gəlir, Hikmət müəllim elə ondan danışırdı. O meyarı da gərək müəyyən edəsən. Onun mənəviyyatına uyğundursa,

bəlkə o birinə uyğun deyil. Ona görə bu, çox həssas bir məsələdir. Gərək o meyarlar da bilinə.

Azay müəllim, buyurun.

**Azay Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Söz verdiyinizə görə minnətdaram. Mən istəyirəm bir də aydınlıq gətirəm. Söhbət hazırlayıb öz evində, yaxud özünün bilgisayarında saxlamaqdan getmir. Mənim dediyim odur ki, həm hazırlayırsan, həm də yayırsan. Bir var, sosial şəbəkədə qarşına çıxır, bunu paylaşırsan. Ona görə 50, 80, 150 manata qədər cərimələnirsən. Bir də var ki, sən bunu bilə-bilə hazırlayırsan və nişanlamırsan, həm də bunu yayırsan. Bu fərqi istədim bilək.

Bir də, hörmətli xanım sədr, axı, söhbət təkcə “TikTok”dan, “YouTube”dan, “Meta”dan getmir. Dünyada yüzlərcə süni intellekt texnologiyaları var, bu gün minlərcə developerlər fəaliyyət göstərir, on minlərcə məhsul hazırlanır. Fərdi qaydada mən şirkət olaraq sabah bunu hazırlaya və paylaşa bilərəm. Nə “TikTok”, nə də digərləri burada məsuliyyət daşımır. Söhbət həmin fiziki, hüquqi şəxslərə bunu hazırlayarkən mütləq nişanlanma öhdəliyi qoymaqdan gedir. Dünyada belə bir praktika var. Ola bilsin, biz indiki mərhələdə bu təklifi qəbul etməyə hazır olmayaq. Amma mən düşünürəm, hörmətli xanım sədr, gələcəkdə, biz, ümumiyyətlə, süni intellektlə bağlı vahid bir qanun layihəsi yəqin ki, – Siz də bu barədə məlumat verdiniz, müvafiq işlər gedir, – qəbul edək. Mütləq bu məsələ nəzərə alınmalıdır. Çünki trend elə inkişaf edir ki, biz burada mütləq bu tarazlığı bərpa etməliyik. Bu şəffaflığı lazımi formada etmiriksə, bu, yarımçıq qalacaq. Yoxsa, artıq kimsə hazırlayır, bunu haradasa paylaşır, biz onu təzədən paylaşanı cərimə edirik, amma bunu

hazırlayıb, eyni zamanda, paylaşana cərimə tətbiq etmirik. Mən istədim hörmətli həmkarlar bu fərqi nəzərə alsınlar.

Hörmətli xanım sədr, söz verdiyinizə görə bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm, Sizin vurğuladığınız birinci hissə ilə bağlı Kamal müəllim bundan öncə dedi ki, Cinayət Məcəlləsində artıq belə bir maddə var. O, bir ayrı maddə artıq mövcuddur. Sizin dediyiniz məsələ ilə bağlı.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, əlbəttə, səsə qoyacağıq, Musa müəllim. Ancaq Aydın müəllim çıxış etmək istəyir. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Çox maraqlı bir müzakirə gedir. Hər iki tərəfin arqumentləri olduqca diqqətçəkəndir.

Məşhur rus yazıçısı Anton Pavloviç Çexovun maraqlı bir fikri var: "Əgər tamaşanın ilk səhnəsində divardan tüfəng asılıbsa, əmin olun ki, son hissədə ondan atəş açılacaqdır". Əgər kimsə nəyisə özü üçün hazırlayırsa, bu, mütləq haradasa, nə vaxtsa fəsad törədəcək.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ancaq mən də öz tərəfimdən deyə bilərəm ki, bu gün heç nə heç kimin kompüterində qalmır. Azay müəllim, burada həmkarlarımız deyirlər ki, öz kompüteri üçün hazırlayır. Xeyr, əgər o, internetə düşdüsə, deməli, Sizin sözünüzə qüvvət, haradasa özünü büruzə verəcək.

Hörmətli həmkarlar, bu barədə çox danışmaq olar. Biz qanun layihəsinə qayıdırıq. Daha çıxış etmək istəyən yoxdur. İkinci oxunuşdur, maddələr üzrə səsverməyə keçirik. 25 maddə var. Mən onları beş-beş səsə qoyacağam. Buyurun, birinci 5 maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

Növbəti 5 maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Növbəti 5 maddəni – 11-ci, 12-ci, 13-cü, 14-cü və 15-ci maddələri səsə qoyuram. Buyurun, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 5 maddəni də səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

Sonuncu 5 maddəni səsə qoyuram və səs verməyinizi sizdən xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

Hörmətli həmkarlar, indi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 5 məsələ qalır. Bu 5 məsələnin hamısı birinci oxunuşda olan qanun layihələridir. Yenə də xahiş edirəm ki, birinci oxunuşun tələblərini yada salasınız və ona riayət edəsiniz.

7-ci məsələyə keçirik. Əmək Məcəlləsində və “Narkoloji xidmət və nəzarət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə təqdim olunur. Bu layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Komitə sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirənizə təqdim edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Narkoloji xidmət və nəzarət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Belə ki, qeyd olunan dövlət proqramının 8.2.2-ci yarımbəndində narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması vəzifəsi öz əksini tapmışdır.

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq, qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə Əmək Məcəlləsinin 4 maddəsində 6 dəyişiklik

təklif olunur. Məcəllənin 48-ci maddəsinin 5-ci bəndinə 5-2-ci və 5-3-cü yarımbəndləri əlavə edilir. Yeni müddəalara görə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə qəbul edilərkən işçinin dövlət narkoloji tibb müəssisəsi tərəfindən verilmiş tibbi müayinə haqqında rəy təqdim etməsi, işçilərin əmək funksiyasının yerinə yetirilməsi zamanı əsaslı şübhələr yarandığı halda işəgötürənin hesabına müvafiq dövri və ya növbədənkənar icbari tibbi müayinədən keçirilməsi məsələlərinin tənzimlənməsi öz əksini tapmışdır.

Habelə dəyişikliyə əsasən Əmək Məcəlləsinin 74-cü maddəsində qeyd olunan peşə və vəzifələr üzrə narkoloji xəstə olan şəxsin işə qəbul edilməsi ilə bağlı əmək müqaviləsinin bağlanıldığı aşkar edildikdə və ya əmək münasibətləri dövründə tibbi müayinə zamanı şəxsin narkoloji xəstə olması müəyyən edildikdə tərəflərin iradəsindən asılı olmayan əsas kimi işçinin əmək müqaviləsinə xitam verilməsi nəzərdə tutulur.

“Narkoloji xidmət və nəzarət haqqında” Qanunun 24.3-cü maddəsində də uyğunlaşma xarakterli – işçinin davranışında narkotik maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda dərhal işəgötürənin vəsaiti hesabına narkoloji müayinədən keçməsi müddəası əlavə olunmuşdur.

Qanun layihəsi konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verir. Layihə Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə edilmiş və Milli Məclisin plenar iclasına birinci oxunuşda müzakirə üçün təqdim olunmuşdur. Qanun layihəsini dəstəkləməyinizi sizdən xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Dünən də, bu gün də Siz ətraflı məlumat verdiniz. Çox sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Səhiyyə komitəsində də baxılıb. Mən indi hörmətli Əhliman müəllimdən xahiş edəcəyəm, komitənin rəyini bildirsin. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı Səhiyyə komitəsinin rəyi müsbətdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Biz müzakirəyə keçirik. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi vacib qanun layihəsidir. Musa müəllim də qeyd etdi ki, bu, dövlət proqramına uyğun olaraq qanunvericilik bazasının möhkəmləndirilməsidir.

Mən hesab edirəm ki, bu məsələ, doğrudan da, həyati əhəmiyyətli və çox ciddi bir məsələdir. Buna qarşı mübarizə təkcə hüquq mühafizə orqanları və digər strukturların işi deyil, bütövlükdə, cəmiyyət tərəfindən buna qarşı mübarizə aparılmalıdır, təbliğat aparılmalıdır, tərbiyəvi kurslar keçirilməlidir. Təkcə onların reabilitasiyası və sağlamlaşdırılması ilə bağlı deyil.

Əslində, – Əhliman müəllim də təsdiq edər, – Azərbaycanda narkotik xəstələrin sağalması üçün cəmi bir dispanser var. Əgər statistika ilə verilən rəqəmə baxsaq, gərək illərlə növbəyə dursun ki, gedib orada sağalsın və oradan da reabilitasiya mərkəzinə getsin. O reabilitasiya mərkəzlərində də yenə həmin qaydadır, çox az sayda insanın reabilitasiyası ilə məşğul olurlar, yəni bunların sayı ilə əlaqədar çatdıra bilmirlər. Ona görə də hesab

edirəm ki, gələcəkdə səhiyyə sahəsində bunun xüsusi xəstəxanalara həvalə olunması, necə ki, onkoloji xəstəliklərin müalicəsinin həyata keçirilməsi səlahiyyətlərini, lisenziyanı müəyyən poliklinikalara, özəl strukturlara vermişik, narkotikdən sağalma prosedurlarının da həmin özəl, regional xəstəxanalarda və yaxud hospitallarda həyata keçirilməsi məqsədəuyğun olardı.

Digər bir tərəfdən, bunun qarşısının alınmasının əsas səbəbləri, çünki birinci oxunuşda biz buna konseptual baxımdan yanaşmalıyıq. Biz bu qanunumuzu daha da gücləndirməliyik. Hər gün xəbərlər proqramına baxanda bütün kanallarda ya proqramın əvvəlində, ya ortasında, ya da axırında göstərilir ki, filan yerdən filan qədər narkotik tapıldı və mənşəyi də məlum deyil, mənşəyi qeyri-müəyyən İran vətəndaşıdır. Nə qədər İran vətəndaşı olar? Elə adını qoyurlar İran vətəndaşı, məlum deyil və gündə 10 kiloqram, 20 kiloqram, 300 kiloqram, yarım ton narkotik maddə tutulur və məhv edilir. Təbii ki, hüquq mühafizə orqanları bununla bağlı ciddi iş aparır. Amma bununla yanaşı, mən hesab edirəm, bunun mənbəyi məlum olub birbaşa mənbəyinin kəsilməsi məqsədəuyğun olardı ki, o mənbə kəsilmədən onun qarşısını almaq qeyri-mümkün olacaq və ayrı-ayrı strukturlara da sirayət edə biləcək.

Bir məsələ də qanunvericilikdə, – indi Musa müəllim qeyd etdi, – peşəsinə və vəzifəsinə görə. Narkomanın peşəsi və vəzifəsi yoxdur. Buradan belə çıxır, götürək ki, gömrükdə işləyənə olmaz, pinəçiyə və yaxud bənnaya narkotik qəbul etmək olar. Yəni qanunun təqdimatından mən belə başa düşdüm, peşəsinə və vəzifəsinə görə müəyyənləşdirilir ki, oranın rəhbərliyi bunun sağalması ilə bağlı addım atmalıdır. İstənilən narkoman narkomandır, onun fərqi yoxdur, gömrükdə işləsin, polisdə işləsin, dərzi,

yaxud bənna olsun. Onun sağalması ilə əlaqədar, əgər özüdürsə, başqa addımlar atılmalıdır və yaxud hansı müəssisə, təşkilatda işləyirsə, müəssisəsindən, təşkilatından, özəl və ya dövlətə məxsusluğundan asılı olmayaraq, onun reabilitasiyası üçün lazımi addımlar atılmalıdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Göydəniz Qəhrəmanov.

**Göydəniz Qəhrəmanov.** Hörmətli xanım sədr, mənə söz verdiyiniz üçün təşəkkür edirəm. Öncədən qeyd etmək istəyirəm ki, qanun layihəsinə səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram.

Bildiyiniz kimi, narkotik vasitələrin qəbulu insan sağlamlığına ən çox zərər verən vərdişlərdən biridir. Eyni zamanda, bu problem cəmiyyətə də ciddi ziyan vurur və bu asılılıq insan taleyinə mənfi təsir göstərir. Ölkəmizdə bunun qarşısını almaq üçün bir sıra tədbirlər görülür və mübarizə aparılır. Lakin təəssüf ki, digər ölkələrdə olduğu kimi, bu problem bizim cəmiyyətimizdən də yan keçmir. Düzdür, digər ölkələrlə müqayisədə ölkəmizdə bu sahədə göstəricilər daha aşağıdır. Bu da, sözsüz ki, dövlətimizin narkomanlığa qarşı apardığı ciddi mübarizənin nəticəsidir.

Hesab edirəm ki, müzakirə etdiyimiz bu qanun layihəsi işə qəbul olunan həmin şəxslərin bu məsələyə daha məsuliyyətlə yanaşmasına səbəb olacaq.

Əlavə olaraq, müzakirə etdiyimiz məsələ ilə bağlı bir təklif də irəli sürmək istərdim. Belə ki, nikah bağlanarkən tibbi arayışla yanaşı, narkoloji tibb müəssisəsi tərəfindən verilmiş tibbi müayinə haqqında rəyin də təqdim olunması məqsədəuyğun olardı. Təəssüf ki, bəzi hallarda şəxsdə narkoloji asılılığın olduğu nikahdan sonra müəyyən edilir və bu da ailələrin

dağılmasına səbəb olur. Əgər bu hallar öncədən müəyyən edilərsə, boşanmaların sayı da azala bilər.

Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, müzakirə bitdi. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Kamal müəllim, yenə  də söz Sizə verilir. Buyurun, məlumat verin, təqdim edin.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Cinayət Məcəlləsinə "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanundan irəli gələrək 2 yeni maddənin əlavə edilməsi təklif edilir.

Birinci dəyişikliyə əsasən terror təşkilatı yaradan, yaxud həmin təşkilata və onun struktur bölməsinə rəhbərlik edən şəxslər 10 ildən 14 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Terror təşkilatının üzvü olan və onun fəaliyyətində iştirak edən şəxslər isə 7 ildən 12 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Terror təşkilatına üzv olan və ya onun fəaliyyətində iştirak edən şəxslər hakimiyyət orqanlarına vaxtında xəbərdarlıq etməklə və ya başqa üsulla cinayət əməllərinin qarşısının alınmasına, müvafiq cinayətkarların aşkar edilməsinə yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda cinayət məsuliyyətindən azad edilir.

Eyni zamanda, Cinayət Məcəlləsinin 282-ci maddəsi də yeni redaksiyada verilir və bu barədə komitə sədri hörmətli Arzu müəllim geniş məlumat verəcək.

Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Müasir dövrün ən ciddi və qlobal təhlükələrindən biri məhz terrorçuluqdur. Bu, ayrı-ayrı dövlətlərin deyil, bütövlükdə, bəşəriyyətin təhlükəsizliyinə yönəlmiş bir təhdiddir. Sərhəd tanımayan bu təhlükə insan həyatını, ictimai sabitliyi, iqtisadi inkişafı və beynəlxalq münasibətləri ciddi şəkildə sarsıdır. Terror aktlarının arxasında duran ideologiyalar nifrəti, zorakılığı və qeyri-sabitliyi təşviq edərək cəmiyyətlər arasında qorxu və inamsızlıq yaradır.

Bu gün terrorçuluğa qarşı mübarizə yalnız hüquq mühafizə tədbirləri ilə məhdudlaşmır. Bu, eyni zamanda, maarifləndirmə, beynəlxalq əməkdaşlıq,

sosial ədalətin təmin edilməsi və radikallaşmanın qarşısının alınması kimi kompleks yanaşma tələb edən bir prosesdir.

Bu baxımdan təqdim olunan çox mühüm qanun layihəsinə əsasən Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və “Terrorçuluğa qarşı mübarizə haqqında” Qanunda bir sıra lazımi dəyişikliklər edilməsi nəzərdə tutulur.

Cinayət Məcəlləsinin 214-4-cü maddəsi ilə bağlı hörmətli Kamal müəllim bu məsələni dedi. Burada bir ciddi məsələ də qanun layihəsində Cinayət Məcəlləsinin 282-ci maddəsində, yəni “Təxribat” maddəsində yeni redaksiyadır. Belə ki, 282.1-ci maddəyə elmi-texniki potensialı zəiflətmək, bu məqsədlə kritik informasiya infrastrukturları, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrinin normal fəaliyyətinin pozulması kimi obyektlər əlavə edilir. Həmçinin təxribatın törədilmə üsullarına bu əməli süni intellekt texnologiyalarından və xüsusi proqram təminatlarından istifadə etməklə törətmə halları da daxil edilir.

Qeyd etmək istərdim ki, layihəyə əsasən 282.2-ci maddədə bir sıra yeni ağırlaşdırıcı hallar nəzərdə tutulur. Bu ağırlaşdırıcı hallara təxribatın cinayətkar birlik tərəfindən törədilməsi, fövqəladə və ya hərbi vəziyyət, sosial xarakterli fövqəladə mühit rejimi, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi, ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olması aiddir. Qeyd edildiyi kimi, 8 ildən 15 ilə qədər həbs cəzası verilir.

Bu mühüm əlavəyə, demək istərdim ki, 282-ci maddənin qeyd hissəsi var. Qeyd hissəsinə əsasən “təxribatın hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu

cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda cinayət məsuliyyətindən azad edilir”.

Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib və birinci oxunuş üçün plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Yazılanlar var. Hikmət Məmmədov. Hikmət müəllim, buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, terrorizm bu gün dünyanın ən aktual problemlərindən biridir. Biz uzun illər terrorizmə qarşı mübarizə aparmışıq, bu gün də aparırıq.

Biz vaxtaşırı Azərbaycanın hüquq mühafizə orqanlarının terror təşkilatlarına və təşkilatlanmalarına qarşı həyata keçirdikləri əməliyyatlara şahidlik edirik. Elə bu yaxınlarda ölkəmizdə akkreditasiya olunmuş bir ölkənin səfirliyi qarşısında terror cəhdinə şahidlik etdik və bunun qarşısını aldıq.

Təqdim olunan qanun layihəsində terrorizm və terror fəaliyyəti kateqoriyalaşdırılır. Yəni terror təşkilatı yaratmaq, ona rəhbərlik etmək və fəaliyyətdə iştirak etmək ayrı-ayrı hüquqi kateqoriyalarda, ayrı-ayrı formada cəzalandırılır. Düşünürəm ki, bu, olduqca vacibdir. Ancaq terrorizmin mahiyyətinə biz nəzər salanda görürük ki, terrorizm siyasi, ideoloji, dini məqsədlər üçün cəmiyyətdə təhdid yaratma, qorxu yaratma vasitələri ilə öz qeyri-qanuni əməllərinə zəmin yaratmaqdır.

Bu gün, mənə elə gəlir ki, terrorizmin əsas yuvalarından biri kimi də ictimai münasibətlərimizin inikas olunduğu virtual ictimai münasibətlərimiz, sistemimizdir.

Bu günlərdə biz mühüm tarixi hadisələr mərhələsindən keçməkdəyik. Biz görürük ki, sosial şəbəkələrdə bir informasiya terroru yaradırlar. Azərbaycanın maraqlarına, milli ideologiyalarımıza, mənimsədiyimiz dini dəyərlərə qarşı fərqli, marginal mövqedən çıxış edərək məzhəbçilik, milli dövləti mənimsəməyərək özünü başqa dövlətə mənsub hiss etmək kontekstində belə terror nümunələrinə rast gəlirik.

Qonşuluqda baş verən müharibələr kontekstində əgər sosial şəbəkələrdə baş verən hadisələrə paralel olaraq biz müqayisə etsək, bu terrorizmin izlərini və mənbələrini görürük. Ancaq bir məsələ var, çox təəssüf ki, biz qanunu bu cür təşkilatlanmalara qarşı tətbiq edə bilmirik. Ona görə, məncə, bu qanunu qəbul edək, bundan sonrakı mərhələdə bir də ideoloji, mənəvi, yaxud dövlətçiliyə qarşı və yaxud siyasi terror məsələləri ilə bağlı da qanun qəbul edərik.

Müşahidələrim nəticəsində gəldiyim qənaət bundan ibarətdir ki, bizim tanıdığımız, bildiyimiz bəzi adamların bir çox sosial kimliyi var. Bu, rus matryoşkasına bənzəyir. Normal vəziyyətdə tanıdığımız hətta bir alim mənim təəccübümə səbəb oldu. Ekstremal vəziyyətdə o matryoşkanın içərisindən ikinci bir adam çıxır və bəlli olur ki, bu, tutaq, terrorçu qədər vəsf ediləcək keyfiyyətlərə malikdir. Üstəlik də sosial şəbəkələrdə təşkilatlanma aparır, milli ideologiyanı, milli mənafeni terror edir.

Bax, bizim Milli Məclisdə çox qiymətli hüquqşünaslarımız var. Azərbaycan qanunvericiliyini, necə deyərlər, Azərbaycan hüquq sistemini əvvəlindən bəri inşa edənlərdir. Mən adlarını çəkmək istəmirəm, hamımız

görürük. Mən həm də vətənpərvərlik mövqeyindən, daha doğrusu, vətəndaş mövqeyindən çıxış edərək məsləhətləşmək istəyirəm. Biz bunu necə həll edə bilərik? Bunu terror kimi vəsf edə bilərikmi? Bunlarla bağlı bir qanun layihəsi qəbul edə bilərikmi və bu qanunu şamil etmək, tətbiq etmək imkanları nə dərəcədədir? Mən düşünürəm ki, bu da müzakirə olunmalı aktual məsələlərdən biridir.

Hələlik isə təqdim olunan qanun layihəsi çox vacibdir, çox aktualdır. Mən bu qanun layihəsinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hikmət müəllim. Mən düşünürəm ki, Sizin dediyiniz o məqamlar bizim qəbul etdiyimiz "Media haqqında" Qanunda öz əksini tapıb. Ancaq yenə deyirəm, Sizin dediyiniz həmin  məqamlar çox vacibdir.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar.  Müzakirəyə çıxarılan qanun layihəsi konseptual baxımdan iki kontekstdə qiymətləndirilə bilər.

Birincisi, transmilli cinayətkarlığın xüsusi təhlükəli seqmenti olan terrorçuluğun qarşısının alınması sahəsində dövlətdaxili hüquqi tənzimləmənin təkmilləşdirilməsi. İkincisi, ən qabaqcıl təcrübələrin məhsulu olan beynəlxalq hüquqi standartların milli qanunvericilikdə implementasiyası.

İlk növbədə qeyd etmək lazımdır ki, London İqtisadiyyat və Sülh İnstitutunun dövlətlərin terror təhlükəsi baxımından 2026-cı il üçün tərtib etdiyi 1-dən 100-dək olan reytinq sıralamasını əks etdirən qlobal terrorizm indeksində Azərbaycan 90-cı reytinq pilləsində qərarlaşaraq nəinki regionda, hətta ümumdünya miqyasında ən təhlükəsiz ölkələr sırasında

qərarlaşıb. Ölkəmizin mürəkkəb geosiyasi məkanda yerləşməsinə və müasir şəraitdə qlobal təhlükəsizlik sisteminin ciddi təhdidlərə məruz qalmasına rəğmən, növbəti dəfə yüksək nəticənin əldə edilməsi əyani formada sübut edir ki, Azərbaycanda təhlükəsizliyin və sabitliyin təmin edilməsi dövlətimizin əsas prioritetidir.

Möhtərəm cənab Prezidentin XIII Qlobal Bakı Forumunda qeyd etdiyi kimi, "təhlükəsizlik məsələsi Azərbaycan üçün hər zaman birmənalı olaraq bir nömrəli məsələ olub". Belə bir konseptual yanaşmanı rəhbər tutan dövlətimiz beynəlxalq miqyasda terrorçuluq, onun maliyyələşdirilməsi və cinayət fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin terror cinayətlərinin törədilməsi məqsədi ilə leqallaşdırılması ilə mübarizəni tənzimləyən universal Birləşmiş Millətlər Təşkilatı səviyyəsində və regional Avropa Şurası çərçivəsində qəbul edilən müqavilələrdə ardıcıl formada iştirak etmişdir.

Bu gün müzakirəyə çıxarılan qanun layihəsini şərtləndirən amillər sırasında həmçinin milli qanunvericiliyə beynəlxalq standartların daxil edilməsi və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq hüquqi instrumentlərin implementasiyası diqqəti xüsusi cəlb edir.

Belə ki, 2024-cü il avqustun 1-də Azərbaycan Respublikası Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" 2004-cü il 9 aprel tarixli Avropa Konvensiyasının Əlavə Protokoluna qoşulmuşdur. Həmin protokolun 2-ci maddəsində bu cinayətin məqsədləri üçün birlik və qrupda iştirak dedikdə həmin birlik və qrup tərəfindən bir və ya daha çox terror cinayətinin törədilməsi və ya törədilməsinin asanlaşdırılması məqsədi ilə birlik və ya qrupun fəaliyyətində iştirak nəzərdə tutulur və həmçinin hər bir razılığa gələn tərəf terror məqsədi ilə birlik və ya qrupda iştirak qanunsuz

və qəsdən törədildikdə öz daxili qanunvericiliyində cinayət kimi müəyyən edilməsi üçün zəruri tədbirləri görür.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Terror təşkilatı yaratma, ona rəhbərlik etmə və ya onun fəaliyyətində iştirak etmə" adlanan 214-4-cü maddənin əlavə edilməsi beynəlxalq razılaşmadan irəli gələn öhdəliklərin həyata keçirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Cinayət Məcəlləsinin 282-ci maddəsi ilə nəzərdə tutulan cinayət məqsədləri üçün süni intellekt texnologiyalarının və xüsusi proqram təminatlarının istifadəsinin kriminallaşdırılması cinayətkarlığın strukturu və dinamikasında müşahidə edilən təhlükəli meyllərin, yəni təxribat məqsədləri üçün informasiya-kommunikasiya texnologiyalarının qarşısının alınmasına yönəlib və şübhəsiz ki, belə bir dəyişikliyin qəbulu dövlət başçısının 2025-ci il 19 mart tarixli Sərəncamına əsasən təsdiq olunan "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın əsas məqsədlərinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımdır.

Qanun layihəsi əhəmiyyətli xarakter daşıyır və mən onun birinci oxunuşda qəbul edilməsinə  səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Müzakirədə sonuncu çıxış. Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini terrorçuluğa qarşı mübarizənin gücləndirilməsi, cinayət məsuliyyətinin dəqiqləşdirilməsi və

müasir təhlükələrə uyğun hüquqi mexanizmlərin formalaşdırılması baxımından aktual və zəruri hesab edirəm.

Xüsusi ilə terror təşkilatının yaradılması, ona rəhbərlik edilməsi və fəaliyyətində iştirakla bağlı ayrıca maddənin əlavə edilməsini müsbət qiymətləndirirəm. Eyni zamanda, layihədə süni intellekt texnologiyalarından mümkün sui-istifadə hallarının nəzərə alınması da müasir çağırışlara uyğun yanaşma kimi diqqət çəkir.

Bununla belə, hesab edirəm ki, layihədə nəzərdə tutulan "terror təşkilatı yaratma" anlayışı müəyyən hallarda məhdud şərhə səbəb ola bilər. Çünki praktikada terrorçuluq fəaliyyəti yalnız sırf bu məqsədlə yaradılmış təşkilatlar tərəfindən deyil, eyni zamanda, müxtəlif formal məqsədlərlə fəaliyyət göstərən təşkilatlar tərəfindən də həyata keçirilə bilər.

Belə ki, dini, ictimai, siyasi, xeyriyyə və ya digər istiqamətlərdə fəaliyyət göstərən təşkilatlar öz əsas məqsədlərindən kənara çıxaraq terrorçuluq fəaliyyəti ilə məşğul ola, onu dəstəkləyə və ya maliyyələşdirə bilərlər. Bu baxımdan hesab edirəm ki, qanunvericilikdə yalnız "terror təşkilatı" anlayışı ilə kifayətlənmək əvəzinə, daha geniş yanaşma tətbiq edilməlidir.

Bu məqsədlə qanunvericiliyə belə bir dəqiqləşdirmənin daxil edilməsini məqsədəuyğun hesab edirəm. Terror təşkilatı dedikdə yalnız terror məqsədi ilə yaradılmış təşkilat deyil, həmçinin formal olaraq başqa məqsədlərlə fəaliyyət göstərməsinə baxmayaraq, terrorçuluq fəaliyyətini həyata keçirən, dəstəkləyən və ya maliyyələşdirən hər hansı təşkilat da nəzərdə tutulur. Hesab edirəm ki, bu yanaşma normanın tətbiq dairəsini genişləndirərək hüquqi boşluqların qarşısını alacaqdır.

Eyni zamanda, hesab edirəm ki, qanunun tətbiqində vahidliyin təmin olunması üçün “terror fəaliyyətində iştirak”, “dəstək” və “maliyyələşdirmə” kimi anlayışların ayrıca hüquqi izahının verilməsi də məqsədəuyğun olardı.

Bununla yanaşı, süni intellektdən istifadə etməklə törədilən cinayətlərlə bağlı texniki ekspertiza mexanizmlərinin və rəqəmsal platformaların məsuliyyət çərçivəsinin daha konkret müəyyən edilməsi də zəruridir.

Qanun layihəsini, ümumilikdə, müsbət qiymətləndirirəm. Hesab edirəm ki, bu qanun layihəsi terrorçuluğa qarşı mübarizənin gücləndirilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, hesab edirəm ki, qeyd etdiyim anlayışların dəqiqləşdirilməsi, xüsusi ilə “terror təşkilatı” anlayışının genişləndirilməsi və texnoloji çağırışların daha konkret tənzimlənməsi layihənin praktik tətbiqində effektivliyi daha da artıracaq, həmçinin qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələbləri baxımından daha mükəmməl normativ sənəd olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, müzakirə bitdi, səsverməyə keçirik. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibətinizi bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Mən yenə də hörmətli Musa müəllimə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan Respublikası tərəfindən Beynəlxalq Əmək Təşkilatının 10 fundamental konvensiyasının, o cümlədən əməyin bərabər ödənişi haqqında 100 saylı və ayrı-seçkiliyin aradan qaldırılması haqqında 111 saylı konvensiyalarının qəbul edilməsi ölkəmizdə sosial yönümlü dövlət siyasətinin ardıcıl və uğurla həyata keçirilməsinin, kişi və qadınlara bərabərdəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi prinsipinin tətbiq edilməsinin aydın təzahürü kimi Beynəlxalq Əmək Təşkilatının konvensiyalarının və tövsiyələrinin tətbiq edilməsi üzrə komitə tərəfindən daim yüksək qiymətləndirilir.

Azərbaycanda qadınlar üçün əvvəllər qadağan olunmuş 674 peşə üzrə məhdudiyyətlərin aradan qaldırılması və şəffaflığın artırılması məqsədi ilə rəqəmsal əmək müqavilələrinin tətbiqi kimi son islahatlar komitə tərəfindən yüksək qiymətləndirilir və  xüsusi ilə qeyd olunur.

Beynəlxalq Əmək Təşkilatının 100 nömrəli konvensiyasına və Avropa Sosial Xartiyasına uyğun olaraq, kişi və qadınlara bərabərdəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi tam təmin olunmalıdır. Lakin mövcud qanunvericilikdə  bu prinsip yalnız "eyni və ya oxşar işlər" çərçivəsində tətbiq olunur və daha geniş anlayışı əhatə etmir.

Bu xüsusda ölkəmizdə əməkhaqqı sahəsində gender bərabərliyinin ən yüksək səviyyədə təmin olunması məqsədi ilə qanunvericiliyə müvafiq

dəyişikliklərin edilməsi zərurətini şərtləndirən əsas amillərdən biri də məhz qeyd olunan beynəlxalq öhdəliklərdən irəli gəlir.

Təqdim olunan layihəyə əsasən Əmək Məcəlləsində dəyişiklik edilərək işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilir və əməkhaqqı sistemində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir. Belə ki, məcəllədə işəgötürənin vəzifələrini nəzərdə tutan 12-ci maddənin “g” bəndi təkmilləşdirilir və cinsindən asılı olmayaraq, “eyni və ya bərabərdəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqının verilməsini təmin etmək” öhdəlik olaraq müəyyən edilir.

Eyni zamanda, məcəllənin 154-cü maddəsinə yeni hissə əlavə edilməklə bərabərdəyərli işin obyektiv qiymətləndirilməsinin əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla, işəgötürənlər tərəfindən müəyyən edilməsi nəzərdə tutulmuşdur.

Layihədə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişikliyə əsasən əməkhaqqının yalnız eyni və ya oxşar işlərə görə deyil, bərabərdəyərli işlərə görə də ödənilməsi nəzərdə tutulur.

Hörmətli həmkarlar, müzakirənizə təqdim edilən qanun layihəsinin qəbul edilməsi ölkəmizdə əmək bazarında gender bərabərliyinin təminatlarının hüquqi bazasının daha da genişləndirilməsinə, həmçinin Azərbaycanın beynəlxalq reytinqinin yüksəlməsinə xidmət edəcəkdir.

Qanun layihəsi konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verir. Layihə Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə

edilmiş və Milli Məclisin plenar iclasına müzakirə üçün təqdim olunmuşdur. Qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə ikinci komitədə də baxılıb – Ailə, qadın və uşaq məsələləri komitəsində. İndi mən hörmətli Hicran xanım Hüseynovadan xahiş edəcəyəm, məlumat versin, komitənin rəyini bildirsin. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycanın qoşulduğu Beynəlxalq Əmək Təşkilatının bərabərdəyərli iş üçün kişi və qadın işçilərin bərabər ödənişi haqqında 100 saylı konvensiyası və digər normativ hüquqi aktlara əsasən kişi və qadınlara bərabərdəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi tam təmin olunmalıdır.

Bu sənədlər əməkhaqqı ilə bağlı gender ayrı-seçkiliyini aradan qaldırmağı hədəfləyir və bu prinsipi həyata keçirmək üçün obyektiv iş qiymətləndirməsindən istifadə edir. İşin obyektiv qiymətləndirilməsi dedikdə, işəgötürənlər tərəfindən əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətlərinin nəzərə alınması başa düşülür.

Bərabərdəyərli iş konsepsiyası o deməkdir ki, işin mahiyyəti fərqli olsa belə, əməkhaqqı eyni olmalıdır. Lakin mövcud milli qanunvericilikdə bu prinsip yalnız eyni və ya oxşar işlər çərçivəsində tətbiq olunur və daha geniş anlayışı əhatə etmir. Bu baxımdan da əməkhaqqının ödənilməsi

sahəsində gender bərabərliyinin təmin olunmasına ehtiyac vardır. Hörmətli Musa müəllim bu barədə çox ətraflı dedi.

Digər tərəfdən, Azərbaycan "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya qoşulub və dövri hesabatlar təqdim edir. BMT-nin müvafiq komitəsinin ölkəmizə verdiyi tövsiyələrdən biri də eyni dəyərə malik olan işləri yerinə yetirən kişilərə və qadınlara bərabər əməkhaqqının verilməsidir. Bu, həm də qadın və kişilərin konstitusion haqqıdır. Buna görə də Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişiklik çox vacib və aktual məsələdir.

Mövcud qanunvericiliyə əsasən eyni ixtisas dərəcəsinə, eyni dəyərə malik, eyni işi görən kişi və qadınlara bərabər əməkhaqqı ödənilir. Bu anlayış bərabərdəyərli iş üçün bərabər əməkhaqqı standartından daha məhduddur, çünki eyni dəyərə malik olan müxtəlif işləri yerinə yetirən kişilərə və qadınlara aid edilmir. Bununla əlaqədar olaraq Əmək Məcəlləsinin müvafiq maddəsi ilə yanaşı, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 9.1-ci maddəsi də yeni redaksiyada verilir.

Qeyd edim ki, respublikada kişi və qadınların orta əməkhaqqı fərqliliyinin aradan qaldırılması məqsədi ilə çox mühüm islahatlar həyata keçirilir. Vətəndaşlarımızın məşğulluq məsələsi, onların layiqli işlə təmin edilməsi Prezident İlham Əliyevin və respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi diqqət mərkəzindədir. Ölkə başçısı hər zaman deyir ki, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

İşsizliyin aradan qaldırılması, yeni iş yerlərinin açılması, qadınların əməyinin qiymətləndirilməsi prioritet məsələlərdir. Müsbət nəticələr də var. 2020-ci ildə qadınların orta əməkhaqqı kişilərin orta əməkhaqqının 63,3 faizini, 2025-ci ildə isə 69,2 faizini təşkil etmişdir. Təqdim olunan qanun layihəsi bu prosesi daha da sürətləndirəcəkdir.

Qanun layihəsi cari il aprelin 6-da komitə iclasında birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, hörmətli Hicran xanım.

Hörmətli həmkarlar, biz indi müzakirəyə keçəcəyik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq öncədən sizə deyim, bəli, fasiləsiz. Bizim iki məsələmiz qalıb. Çox sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media mənsubları. Müzakirəyə təqdim olunan qanun layihəsi mahiyyət etibarı ilə əmək münasibətlərində bərabərlik prinsipinin daha yüksək hüquqi standartlara uyğunlaşdırılmasına xidmət edir. Birinci oxunuşun tələblərinə uyğun olaraq, qeyd etmək lazımdır ki, layihənin əsas ideyası eyni işə görə bərabər əməkhaqqı prinsipindən bərabərdəyərli işə görə bərabər əməkhaqqı prinsipinə keçidin təmin edilməsidir. Bu isə yalnız terminoloji dəyişiklik deyil, əmək hüququnun fəlsəfəsində mühüm bir baxış bucağıdır.

Müasir əmək bazarında müxtəlif peşələr arasında dəyər fərqlərinin subyektiv qiymətləndirilməsi çox zaman gizli gender bərabərsizliyinə səbəb olur. Təklif olunan dəyişiklik məhz bu boşluğu aradan qaldırmağa yönəlib.

Layihədə Əmək Məcəlləsinin 12-ci maddəsinə edilən əlavə ilə işəgötürənin vəzifələri daha da konkretləşdirilir və bərabər əməkhaqqının təmin edilməsi birbaşa hüquqi öhdəlik kimi müəyyən edilir. Bu yanaşma normativ çərçivədə deklorartiv yanaşmadan praktik icra mexanizminə keçid deməkdir.

Eyni zamanda, 154-cü maddəyə əlavə edilən yeni müddəa xüsusi əhəmiyyət kəsb edir. Burada bərabərdəyərli iş anlayışının müəyyənləşdirilməsi üçün meyarlar, əmək şəraiti, əmək funksiyasının xarakteri və tarif-ixtisas göstəriciləri nəzərdə tutulur. Bu, hüquqi tətbiq baxımından çox vacib elementdir. Çünki normanın icrası üçün ölçülə bilən və obyektiv kriteriyalar təqdim edir.

Bununla yanaşı, layihədə diqqətçəkən məqamlardan biri də işin dəyərinin müəyyən edilməsinin işəgötürənin səlahiyyətinə verilməsidir. Bu yanaşma idarəetmə baxımından çevikliyi təmin etsə də, eyni zamanda, potensial risklər də yarada bilər. Çünki subyektiv qiymətləndirmə imkanları qalır və bunun normanın effektivliyinə təsir göstərə biləcəyi ehtimalı da var. Bu baxımdan, qənaətimə görə, ikinci oxunuşa qədər bir sıra məqamların dəqiqləşdirilməsi daha məqsədəuyğun olar. Əvvəla, bərabərdəyərli iş anlayışının müəyyən edilməsi üçün metodologiyanın yalnız işəgötürən tərəfindən deyil, eyni zamanda, müstəqil qiymətləndirmə mexanizmləri və ya dövlət tərəfindən təsdiq olunmuş standartlar əsasında həyata keçirilməsi nəzərdə tutulsa, qənaətimə görə, daha yaxşı olar. Həmçinin əməkhaqqı bərabərsizliyi ilə bağlı mübahisələr zamanı sübut etmə yükünün bölgüsü daha aydın şəkildə müəyyən edilməlidir. Xüsusi ilə də işçinin hüquqlarının qorunması üçün işəgötürənin əsaslandırma öhdəliyi daha da genişləndirilməlidir.

Bütövlükdə isə, düşünürəm ki, qanun layihəsi konseptual baxımdan düzgün hazırlanıb və birinci oxunuşda dəstəklənməsi məqsədəuyğundur.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Günay Ağamalı. Buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Təqdim olunan qanun layihəsi əmək münasibətlərində ədalət və gender bərabərliyinin daha dolğun təmin olunmasına yönəlmiş mühüm təşəbbüsdür. Layihə beynəlxalq standartlara uyğun olaraq, yalnız eyni deyil, bərabərdəyərli müxtəlif işlərə görə də bərabər əməkhaqqının verilməsini nəzərdə tutur və bu istiqamətdə mövcud hüquqi mexanizmləri təkmilləşdirir. Eyni zamanda, işəgötürənlərin məsuliyyəti konkretləşdirilir, əməkhaqqı sistemində şəffaflıq və ədalət prinsipləri gücləndirilir. Sözügedən dəyişikliklər sosial ədalətin möhkəmlənməsinə, qadınların əmək bazarındakı mövqeyinin güclənməsinə və insan kapitalından daha səmərəli istifadəyə xidmət edir.

Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri də məhz gender bərabərliyinin təmin olunmasıdır. Təqdim olunan layihə bu siyasətin davamı olaraq mühüm addım kimi qiymətləndirilməlidir. Qanun layihəsinə səs verəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır.

Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Cənab Prezident tərəfindən “Yol hərəkəti haqqında” Qanunun 1-ci maddəsində – “Əsas anlayışlar”da vacib bir düzəliş təklif olunur. Belə ki, “Əsas anlayışlar”da operativ nəqliyyat vasitələri sadalanır. Bilirik ki, bu, xüsusi nəqliyyat vasitələridir. Polis, yanğınsöndürmə, təcili tibbi yardım avtomobilləri və sair. Operativ nəqliyyat vasitələrinin, təbii ki, üstün hərəkət imkanları mövcuddur. Burada da məqsəd, bütövlükdə, nəqliyyatın təhlükəsizliyini təmin etməkdir. Təklif olunan dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, prokurorluq orqanlarının kriminalistik avadanlığını daşıyan avtomobillər də bu siyahıya əlavə olunur.

Hörmətli həmkarlar, yəqin hamınız razılaşarsınız ki, cinayət işlərinin isti izlərlə açılmasında məhz kriminalistik hərəkətlər çox mühüm rol oynayır. Bu baxımdan təklif olunur ki, növbətçi əməliyyatçıların çatdırılması,

təxirəsalınmaz prosessual hərəkətlərin həyata keçirilməsi məqsədi ilə prokurorluq orqanlarının kriminalistik avadanlıq avtomobilləri də operativ nəqliyyat vasitəsi siyahısına əlavə olunsun.

Layihəni komitəmiz dəstəkləyir. Əminəm ki, siz də layihəyə müsbət səs verəcəksiniz.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Çıxışa yazılan yoxdur. Ona görə də biz səsverməyə keçməliyik. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 11-ci məsələsinə keçirik. Bu məsələ Vergi Məcəlləsində, “Təhsil haqqında” və “Minatəmizləmə fəaliyyəti haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Komitənin sədri hörmətli Arzu müəllimə söz verirəm. Arzu müəllim, buyurun, məlumat verin.

**Arzu Nağıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Minatəmizləmə fəaliyyəti müasir dövrdə həm humanitar, həm də milli təhlükəsizlik baxımından ən həssas və həyati əhəmiyyət daşıyan sahələrdən biridir. Müharibədən və işğaldan azad olunmuş ərazilərdə həyatın bərpası, məcburi köçkünlərin doğma

torpaqlarına qayıdışı, infrastrukturun yenidən qurulması məhz bu təhlükəli, lakin şərəfli fəaliyyətin nəticəsində mümkün olur.

Lakin bu müqəddəs missiya böyük risklər və itkilər hesabına həyata keçirilir. Humanitar, hərbi və operativ minatəmizləmə zamanı həyatını itirənlər öz canları bahasına insanların təhlükəsizliyini təmin edən, gələcək nəsillərə daha təhlükəsiz bir vətən miras qoyan qəhrəmanlardır.

Bu baxımdan minatəmizləmə zamanı həlak olan şəxslərə dövlət qayğısı yalnız sosial siyasətin bir istiqaməti deyil, eyni zamanda, mənəvi borc, milli məsuliyyət və ədalət prinsipinin təzahürüdür. Onların ailələrinin sosial müdafiəsi, təminatı və diqqət mərkəzində saxlanılması dövlətin humanist siyasətinin əsas prioritetlərindən biri kimi çıxış edir.

Bugünkü çıxışımızda əsas məqsədimiz məhz bu istiqamətdə həyata keçirilən sosial siyasətin mahiyyətini, dövlət tərəfindən görülən tədbirləri və gələcəkdə bu sahədə atılmalı olan addımları diqqətə çatdırmaqdır.

Təqdim olunan qanun layihəsi həm Vergi Məcəlləsində, həm də “Təhsil haqqında”, “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədədir.

Qeyd edildiyi kimi, layihədə Vergi Məcəlləsinə təklif edilən dəyişiklik minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin vergi tutulmalı olan aylıq gəlirinin 400 manat məbləğində azaldılmasını, eyni zamanda, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişiklik isə minatəmizləmə fəaliyyəti həyata keçirən zaman həlak olmuş minatəmizləyənlərin övladlarının mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının təhsil müəssisələrində ödənişli əsaslarla

təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsini nəzərdə tutur.

Hörmətli həmkarlar, qanun layihəsinin keçid maddəsinə əsasən 2026-cı il sentyabrın 15-dən tətbiq edilməsi nəzərdə tutulan dəyişikliklər bu qanun qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladlarına da şamil olunur. Ən çoxu 23 yaşına çatanadək.

Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib və birinci oxunuş üçün plenar iclasa tövsiyə edilmişdir.

Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə baxılıb. O iki komitədən birincisi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim edilmiş qanun layihəsi barədə hörmətli həmkarımız, komitə sədri Arzu Nağıyev ətraflı məlumat verdi. Profil komitəsi olaraq layihə çərçivəsində Vergi Məcəlləsində edilən dəyişiklikləri vacib və əhəmiyyətli hesab edirik. Məcəlləyə əlavə edilən yeni maddə ilə peşə fəaliyyətini həyata keçirərkən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. Bu, mahiyyətcə həmin şəxslərin vergi yükünün azaldılması deməkdir.

Məlumat üçün bildirmək istərdim ki, gəlir vergisi üzrə eyni ilə bu cür güzəştə malik olan şəxslərin sırasına Vətən müharibəsi qəhrəmanları, milli qəhrəmanlar, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin ailə üzvləri, “Müharibə veteranı” adı almış şəxslər və digərləri də daxildir. Qanun layihəsinin sosial xarakterini və vacibliyini nəzərə alaraq, onun birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

İkinci komitə Elm və təhsil komitəsidir. Komitənin rəyini bildirmək üçün hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikası Prezidentinin imzası ilə Milli Məclisə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi daxil olmuşdur.

Qanun layihəsinə görə 14.8-1.10-cu maddənin qanuna əlavə olunması tövsiyə olunur. Yəni “dövlət, bələdiyyə və özəl orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladları” ən çox 23 yaşına çatanadək təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanun 2026-cı il sentyabrın 15-dən tətbiq ediləcək.

Hörmətli xanım sədr, qanun layihəsi Elm və təhsil komitəsində müzakirəyə çıxarılmış və plenar iclasa tövsiyə olunmuşdur. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Anar müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Olduqca aktual qanundur, tam dəstəkləyirəm. Bu qanunun ən ədalətli tərəfi həm də bu günə qədər minatəmizləmə fəaliyyəti nəticəsində partlayıcı sursatların işə düşməsinə görə dünyasını dəyişmiş, yaxud da xəsarət almış şəxslərin ailələrinə də qanunun geriyə qüvvəsinin tətbiq olunması baxımından olduqca ədalətli, doğru yanaşmadır.

Mən burada başqa bir məsələyə toxunmaq istəyirəm. Biz bəlkə bunu təkcə minatəmizləmə fəaliyyəti ilə məhdudlaşdırmayaq. Hörmətli Arzu müəllim ətraflı məlumat verdi və çox dəyərli fikirlər səsləndirdi. Qanunvericilik subyekti ilə danışıb, – bizim yaxın tariximizdə bu oldu, hərbi sursat anbarında partlayış baş verdi, təkcə mina partlayışından söhbət getmir, – hesab edirəm ki, partlayıcı maddələrin zərərsizləşdirilməsi sahəsində ixtisaslaşdırılmış şəxslərin müxtəlif məkanlarda baş verən partlayışların qarşısını alması prosesini də bura daxil edək.Çünki Daxili

İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, müxtəlif ordu birləşmələrinin, Müdafiə Nazirliyinin daxilində məhz harada isə terrorçuluqla bağlı, ya şəhərin mərkəzində, ya da başqa yerlərdə baş verə biləcək hansı isə bir partlayış ehtimalının qarşısının alınmasına da bunu şamil edə bilək. Yalnız minatəmizləyənlərlə məhdudlaşdırmayaq.

Bu baxımdan hər halda təklif olaraq səsləndirirəm ki, bunu müzakirə etsələr, bir az bu sahədə çalışan, riskli fəaliyyətlə məşğul olan digər mütəxəssislərin də ailələrinə baş vermiş hadisədən sonra bunun şamil edilməsi daha ədalətli olar. Hər halda mən bunun nəzərə alınmasını tövsiyə edərdim.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media təmsilçiləri. Mən də hesab edirəm ki, olduqca vacib bir qanun layihəsidir. Çünki burada biz minatəmizləmə fəaliyyəti zamanı həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı olan bir qanunu müzakirə edirik. Hesab edirəm ki, istər Vergi Məcəlləsində, istərsə də “Təhsil haqqında” Qanunda və digər normativ sənədlərdə zəruri dəyişikliklərin edilməsi ilə həmin şəxslərin ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılması, həqiqətən də, olduqca vacib məsələdir. Bu da birbaşa olaraq dövlətin qayğısını göstərə biləcək bir haldır.

Eyni zamanda, fürsətdən istifadə edib birinci oxunuşun tələblərinə görə bir sıra vacib fikirləri səsləndirmək istəyirəm. Bildiyiniz kimi, faktiki olaraq, bizdə postmünaqişə dövründə minatəmizləmə fəaliyyəti, həqiqətən də, xüsusi strateji əhəmiyyət daşıyan bir sahədir. Çünki ölkənin beşdə bir hissəsinə Böyük Qayıdışın uğurlu şəkildə həyata keçirilməsi üçün ilk əvvəl həmin ərazilərdə təhlükəsizlik mühitinin yaradılması vacibdir. Bu baxımdan da bizim ANAMA-nın və ANAMA ilə əməkdaşlıq edən qeyri-hökumət təşkilatlarının fəaliyyətini də, şübhəsiz ki, yüksək dəyərləndirirəm.

Amma eyni zamanda, bildirmək istəyirəm, bu sahədə çalışan qeyri-hökumət təşkilatlarının sayı elə də çox deyil və beynəlxalq praktika göstərir ki, bu sahədə xüsusi ilə də beynəlxalq donorlar məhz QHT sektoru, seqmenti ilə çox yaxından əməkdaşlıq edirlər. Düşünürəm, gələcəkdə biz bu məsələyə də xüsusi diqqəti artırmalıyıq ki, ən azından bu sahədə bilavasitə istər peşə kadrlarının hazırlanması baxımından, istərsə də maarifləndirmə və məlumatlandırma tədbirlərinin həyata keçirilməsində QHT-lərin potensiallarından geniş istifadə olunsun. Yeri gəlmişkən, sizə onu da deyim ki, burada önəmli məsələ həm də bu sahəyə beynəlxalq donorların geniş şəkildə cəlb olunması məsələsidir. Çünki minatəmizləmə fəaliyyəti, əslində, humanitar xarakterli bir fəaliyyətdir. Düşünürəm ki, biz bu istiqamətdə də müəyyən addımlar atmaqla yanaşı, eyni zamanda, beynəlxalq donorların geniş şəkildə bu sahəyə cəlb olunmasına nail ola bilərik.

Sonuncu məsələ mina xəritələri ilə bağlı olan məsələdir. Bildiyiniz kimi, mən QHT sektorunda fəaliyyət göstərdiyim zaman bir neçə platformada biz bu məsələ ilə bağlı geniş şəkildə həyəcan təbili çalmışıq və aidiyyəti strukturlara, o cümlədən beynəlxalq təşkilatlara müraciət etmişik ki, Ermənistan tərəfi həqiqətə, reallığa uyğun olan mina xəritələrini Azərbaycana vermiş olsun. Verilən xəritələr də həqiqəti əks etdirmirdi, yalnız 20–25 faiz harada isə müəyyən mənada həqiqətə uyğun olan xəritələr olmuşdu. Bu baxımdan düşünürəm, indiki şəraitdə, xüsusi ilə də Ermənistanla sülh münasibətlərinin tənzimlənməsi istiqamətində, ümumiyyətlə, bütövlükdə, Azərbaycan tərəfindən məhz sülhün bərqərar olmasına xidmət edən bir çox addımların atıldığı şəraitdə Ermənistanın siyasi hakimiyyəti, nəhayət ki, özündə siyasi iradə tapıb o həqiqətə uyğun

olan mina xəritələrini Azərbaycana vermiş olsun. Bu baxımdan da beynəlxalq tərəfdaşlarımızın, o cümlədən beynəlxalq təşkilatların da məhz bu səpkidə səylərinin səfərbər olunmasına nail olmalıyıq və bu istiqamətdə də, düşünürəm ki, həm bizim qeyri-hökumət təşkilatları, həm də aidiyyəti strukturlar birgə, əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməlidirlər. Düşünürəm ki, belə olduğu təqdirdə biz çox müsbət nəticələr əldə etmiş olarıq.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Minatəmizləmə zamanı həlak olan şəxslərin övladlarının sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan qanun layihəsinə mən də öz münasibətimi bildirmək istərdim.

Mina təhlükəsi bu gün də ən ağır humanitar problemlərdən biri olaraq qalır. O, nə yaşa, nə də sosial vəziyyətə fərq qoyur. Zərərçəkənlər arasında mülki şəxslər, valideynlər, ailə başçıları var. Nəticədə valideyn itkisi, valideynlərin əlilliyi, həyat səviyyəsinin aşağı düşməsi və gələcək imkanların məhdudlaşması ilə qarşılaşmış uşaqların taleyi ön plana çıxır. Bu uşaqlar öz talelərini seçməyiblər. Lakin onları qorumaq və dəstəkləmək əsas şərtdir.

Təklif olunan qanun layihəsi mina qurbanı olmuş şəxslərin övladları üçün müvafiq güzəştlərin təmin edilməsinə yönəlib. Burada söhbət təhsil, vergi güzəştləri, sosial təminat sahələrində əlavə təminatların yaradılmasından gedir. Belə ki, sözügedən dəyişikliklər bu ailələr üçün müəyyən vergi və təhsil güzəştlərinin tətbiqini mümkün edir ki, bu da

onların maddi vəziyyətinə birbaşa müsbət təsir göstərəcək, təhsilə çıxış imkanlarını genişləndirəcək.

Bu qanun həm sosial siyasət, həm ədalət, həm də ən həssas vəziyyətdə olan insanlara qarşı məsuliyyətin təsdiqidir. Bununla biz sözügedən uşaqların gələcəyinə sərmayə qoyuruq, onların layiqli həyat, təhsil almaq, inkişaf etmək və cəmiyyətin tamhüquqlu üzvü olmaq imkanı qazanmasına dəstək veririk.

Təsadüfi deyil ki, bu günlərdə minatəmizləmə zamanı həlak olmuş şəxslərin ailələrinə Prezident təqaüdü də təsis edildi ki, bu, dövlətin sosial siyasətində insan amilinin prioritet olduğunu bir daha nümayiş etdirdi.

Hörmətli həmkarlar, mən sizin hər birinizi bu qanun layihəsinə səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nigar xanım.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Nigar xanım, xahiş edirəm, Siz bir dəfə də düyməyə basın.

Mən indi qanun layihəsini birinci oxunuşda səsə qoyacağam. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, mən həmişə təbrikləri sonda deyirəm və bu gün mən, ümumiyyətlə, bütün Milli Məclisi və bir qrup deputatı təbrik etmək

istəyirəm. Onu da deyim ki, bir neçə gün əvvəl Milli Məclisin 10 nəfər hörmətli deputatı və 7 nəfər əməkdaşı bir futbol komandası tərkibində Türkiyənin Antalya şəhərində yarışda iştirak etmişdilər və orada yüksək bir yer tutublar. Mən istərdim, indi hörmətli Fazil müəllimə söz verim. Fazil müəllim həmin futbol komandasının kapitanı idi. Fazil müəllim, bizə ətraflı bir məlumat verin. Buyurun.

**Fazil Mustafa**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Əlbəttə, ölkə Prezidentinin artıq aforizmə çevrilmiş bir sözü var. Deyir ki: “Bizim bir ailəmiz var, o da türk dünyasıdır”. Yəni Vaşinqtondan tutmuş Pekinə qədər dostlarımız, əməkdaşlıq etdiyimiz hər cür dövlət var. Amma ailə modelini biz türk dünyası üzərindən görürük və ona görə də türk dünyasına aid olan bütün tədbirlərdə iştirak etmək Azərbaycan üçün, həqiqətən də, önəmli bir addımdır. Necə ki, bu günlərdə hörmətli xanım sədr, Sizin də dəstəyinizlə Azərbaycan parlamentində TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclası da yüksək səviyyədə keçirildi. Amma əməkdaşlıq təkcə iqtisadiyyatda, hərbdə, siyasətdə, mədəniyyətdə olmur, həm də idman və başqa sahələrdə də həyata keçirilir. Bu günlərdə Antalyada Türkiyə Böyük Millət Məclisinin təşəbbüsü və Türkiyə millət vəkillərinin iştirakı ilə 6 komandanın cəlb olunduğu beynəlxalq futbol turniri keçirildi.

Əvvəllər bu turnirlər Avropa ölkələri ilə, ayrı-ayrı parlamentlərlə birlikdə keçirilirdi. İlk dəfə idi, TÜRKPA-ya daxil olan ölkələrin parlamentlərinin təmsilçiləri burada iştirak edirdilər. Hörmətli xanım sədr, Sizin göstərdiyiniz hərtərəfli dəstək və stimul nəticəsində Azərbaycan parlamentində yaxşı bir komanda formalaşdırıldı – həm Milli Məclisin millət vəkillərindən, həm də Milli Məclis Aparatının əməkdaşlarından ibarət. Burada qeyd edim ki,

Azərbaycan komandası finala çıxdı, finalda Türkiyəyə məğlub oldu. Bir şeyi də diqqətinizə çatdırım ki, Türkiyə komandasının tərkibində millət vəkili olan iki nəfər milli futbol takımının futbolçusu yer alırdı.

Amma burada əsas məqsəd qalib gəlməkdən daha çox bu tədbirdə iştirak etmək idi. Kuzey Kıprıs Türk Cümhuriyyətinin də burada iştirakı nəzərdə tutulurdu və o da çox faydalı oldu. Həm də burada çox yaxşı dostluq, əməkdaşlıq münasibətlərinin qurulması da baş tutdu.

Mən bu tədbirdə iştirak edən bütün millət vəkillərinə və Milli Məclisin əməkdaşlarına öz təşəkkürümü bildirirəm. Bu turnirdə böyük fədakarlıq göstərən, ən çox qol atan bizim deputat həmkarımız hörmətli Kamran Bayramov da oyunların birində, sonuncu oyunda zədələndi. Ona da Allahdan şəfa diləyirəm.

Hesab edirəm ki, bu cür tədbirlərdə iştirakımız həm də Azərbaycan parlamentinin nüfuzudur, Azərbaycan parlamentinin bu cür tədbirlərə nə qədər həssas yanaşdığının göstəricisidir. Ümid edirəm ki, hörmətli xanım sədr, Sizin dəstəyinizlə bundan sonra da bu cür vacib tədbirlərdə, xüsusi ilə də dostluğa, qardaşlığa, həmrəyliyə sövq edən, bunu təşviq və təbliğ edən tədbirlərdə hamımızın iştirakımız ümumi işimizin də faydasına olacaqdır.

Bir daha təşəkkür edirəm. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən də sizin hamınızı təbrik edirəm. Bilirsiniz, sağlam idman insanları birləşdirir. Mən düşünürəm, bu futbol komandası ki getmişdi, onun üzvləri kimi siz bir-birinizə daha da yaxın olacaqsınız. Sizdə qapıçı kim idi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məzahir Əfəndiyev. Məzahir müəllim, qol buraxdınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq bilirəm ki, yaxşı oynayır, yaxşı da qapıçıdır.

Hamınızı təbrik edirəm.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı, növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*10 aprel 2026-cı il*

**Asif Əsgərov.** Aprelin 6-da Prezident İlham Əliyevin Gürcüstana səfəri iki qardaş ölkə arasında strateji əməkdaşlığın daha da genişlənməsi baxımından mühüm önəm kəsb edir. Azərbaycan–Gürcüstan münasibətləri tarixən dostluq və qardaşlıq münasibətləri üzərində qurulub, bu ənənələr hazırda davam etdirilir.

Gürcüstanda mövcud olan əlverişli sərmayə iqlimi, siyasi sabitlik və güclü idarəetmə modeli həm yerli, həm də xarici investorlar, o cümlədən Azərbaycan investorları üçün cəlbedici şərait yaradır. Ötən il Azərbaycan–Gürcüstan ticarət dövriyyəsi 800 milyon dolları ötüb və bu ilin ilk rübündə də əhəmiyyətli artım müşahidə olunub. Hazırkı inkişaf tempinə əsasən ilin sonuna qədər həmin göstəricinin bir milyard dollara çatacağı gözlənilir. Azərbaycan tərəfi bu dost ölkənin iqtisadiyyatına indiyədək 3,7 milyard dollar sərmayə yatırıb və gələcəkdə yeni birgə layihələr üçün əməkdaşlıq perspektivləri diqqət mərkəzində olacaqdır.

Prezident İlham Əliyev mətbuata bəyanatında vurğulayıb ki, biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Bu amillər regionda beynəlxalq hüququn prinsiplərinin qorunmasına xidmət edir. Ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı kimi prinsiplər hər iki tərəf üçün dəyişməz mövqe olaraq qalır. Bu yanaşma, eyni zamanda, regional sabitliyin qorunmasına da töhfə verir.

Səfər çərçivəsində dövlətimizin başçısı Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlara da toxunub. Azərbaycan və Gürcüstanın birgə təşəbbüsləri regional inteqrasiyanı təşviq edir və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir. Bu yanaşma qonşu ölkələr üçün nümunəvi model yaradır. Yeni layihələr və qarşılıqlı əməkdaşlıq təşəbbüsləri tərəflər arasında etimadı gücləndirir və uzunmüddətli inkişaf perspektivləri üçün möhkəm zəmin formalaşdırır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, “bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik, əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar,

müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtı ilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir".

Dövlətimiz uzun illər regionun enerji təhlükəsizliyinin təmin olunmasında mühüm addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac olunur və bu ixracın əsas hissəsi Gürcüstan vasitəsi ilə həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq 20 ildir ki, uğurla fəaliyyət göstərir, Cənub Qaz Dəhlizi isə regional enerji layihələri üçün əlavə imkanlar yaradır. Eyni zamanda, Azərbaycan və Gürcüstandan keçən Orta Dəhliz nəqliyyat üçün əsas marşrut olaraq fəaliyyət göstərir və bu dəhlizin genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Bu strateji əməkdaşlıq həm də bölgədə davamlı sabitliyin təmin olunması baxımından əhəmiyyətlidir. Hər iki tərəf sülhün möhkəmləndirilməsi, qarşılıqlı etimadın artırılması və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə təşəbbüsləri dəstəkləyir. Bu yanaşma yalnız ikitərəfli əlaqələri möhkəmləndirmir, eyni zamanda, Cənubi Qafqazda təhlükəsiz və səmərəli əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir.

Eyni zamanda, Azərbaycan və Gürcüstan mədəniyyət, təhsil və humanitar sahələrdə əməkdaşlığı inkişaf etdirir. Təcrübə mübadiləsi, gənclərin təhsil imkanlarının artırılması və mədəni layihələrin həyata keçirilməsi xalqlar arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirir. Bu baxımdan strateji əməkdaşlıq yalnız siyasi-iqtisadi sahələri deyil, həm də sosial və mədəni əlaqələri əhatə edir.

Azərbaycan və Gürcüstanın ikitərəfli gündəliyi genişdir və zaman keçdikcə daha da zənginləşir. Yeni layihələr, yeni təşəbbüslər və qarşılıqlı

səylər nəticəsində əməkdaşlıq daha da dərinləşir. İki dövlətin münasibətləri qarşılıqlı etimad, inam, ortaq maraqlar və dostluq üzərində qurulub, bu amillər bütün qonşular üçün nümunə təşkil edir. Prezident İlham Əliyev əminliyini ifadə edib ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

**Bədəl Bədəlov.** Aprelin 6-da Prezident İlham Əliyevin Gürcüstana səfəri çərçivəsində mətbuata verdiyi bəyanat iki dövlət arasında mövcud olan strateji tərəfdaşlığın dərin mahiyyətini və inkişaf dinamikasını bir daha nümayiş etdirir. Səsləndirilən fikirlər ikitərəfli münasibətlərin yalnız bugünkü vəziyyətini deyil, həm də gələcək istiqamətlərini və regional əməkdaşlıq baxımından əhəmiyyətini ön plana çıxarır.

Azərbaycan ilə Gürcüstan arasında əlaqələr əsrlər boyu formalaşmış dostluq və qardaşlıq ənənələrinə əsaslanır. Prezident İlham Əliyevin vurğuladığı kimi, bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. İki müstəqil dövlət olaraq tərəflər inamla inkişaf edir və bu inkişafın əsasında qarşılıqlı etimad dayanır. Tarixi əlaqələrin müasir mərhələdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi region üçün sabitlik və əməkdaşlıq modeli yaradır.

Gürcüstanda mövcud olan siyasi sabitlik və bunun iqtisadi inkişaf üçün yaratdığı əlverişli mühit sayəsində ölkədə müsbət sərmayə iqlimi formalaşıb və bu da xarici investorların, o cümlədən Azərbaycan investorlarının marağını artırıb. Bu günədək Gürcüstan iqtisadiyyatına yatırılan 3,7 milyard dollarlıq sərmayə iki dövlət arasında iqtisadi əməkdaşlığın real göstəricisidir. Ticarət dövriyyəsinin artan dinamikası isə iqtisadi inteqrasiyanın daha da genişlənəcəyini sübut edir.

Azərbaycan və Gürcüstan beynəlxalq təşkilatlar çərçivəsində daim qarşılıqlı dəstək nümayiş etdirir. Ərazi bütövlüyü, suverenlik və sərhədlərin

toxunulmazlığı kimi prinsiplər tərəflərin ortaq mövqeyini təşkil edir. Bu yanaşma yalnız ikitərəfli münasibətləri möhkəmləndirmir, eyni zamanda, regionda beynəlxalq hüququn prinsiplərinin qorunmasına xidmət edir.

Səfər zamanı səsləndirilən mühüm məqamlardan biri də Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlarla bağlı idi. Uzun illər gərginlik, qarşıdurma və münaqişələrlə xarakterizə olunan region artıq keyfiyyətcə fərqli inkişaf mərhələsinə qədəm qoyur. Bu yeni mərhələnin əsas prioritetlərini sülhün möhkəmləndirilməsi, davamlı sabitliyin təmin olunması və qarşılıqlı faydalı əməkdaşlıq təşkil edir. Formalaşan yeni şərait region dövlətləri qarşısında geniş imkanlar yaradır. Həmin imkanlardan səmərəli istifadə olunması iqtisadi inteqrasiyanın dərinləşməsinə, nəqliyyat və enerji layihələrinin genişlənməsinə, həmçinin qarşılıqlı etimad mühitinin daha da güclənməsinə xidmət edəcəkdir. Eyni zamanda, regional əməkdaşlığın inkişafı təkcə iqtisadi deyil, siyasi və təhlükəsizlik baxımından dayanıqlı gələcəyin təmin olunmasında mühüm rol oynayır.

Regionda davamlı sülhün təmin olunması üçün iqtisadi əlaqələrin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Gürcüstanın tranzit ölkə kimi rolu mühüm faktor kimi çıxış edir. Ticarət və iqtisadi əməkdaşlıq sülh prosesinin möhkəmlənməsində praktik vasitə kimi qiymətləndirilir.

İki dövlət arasında əməkdaşlığın ən mühüm istiqamətlərindən biri enerji və nəqliyyat sahələridir. Azərbaycan uzun illərdir ki, geniş coğrafiyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır və bu prosesdə Gürcüstan əsas tranzit tərəfdaşdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi layihələr regionun enerji xəritəsini dəyişdirən strateji təşəbbüslərdir. Bu layihələr vasitəsi ilə enerji resursları

dünya bazarlarına təhlükəsiz və dayanıqlı şəkildə çatdırılır. Eyni zamanda, Orta Dəhliz layihəsi Şərq–Qərb nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayır. Bu dəhliz iki dövlətin tranzit imkanlarını artırmaqla yanaşı, regionun geoiqtisadi əhəmiyyətini də yüksəldir.

Dövlətlərarası əməkdaşlıq gündəliyi kifayət qədər genişdir və davamlı olaraq inkişaf edir. Yeni investisiya layihələri, üçüncü ölkələrdə birgə fəaliyyət imkanları və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi tərəfdaşlığın perspektivlərini daha da artırır. Bu münasibətlər modeli qarşılıqlı hörmət, etimad və ortaq maraqlar üzərində qurulduğu üçün regionda nümunəvi əməkdaşlıq formatı kimi mühüm önəm kəsb edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim münasibətlər, deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Prezident İlham Əliyevin Gürcüstana səfəri çərçivəsində mətbuata verdiyi bəyanat bir daha göstərdi ki, iki dövlət arasında münasibətlər yalnız mövcud əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda, gələcəyə yönəlmiş strateji baxışa əsaslanır. Siyasi dialoqdan iqtisadi inteqrasiyaya doğru inkişaf edən bu münasibətlər regionda sabitliyin, təhlükəsizliyin və rifahın təmin olunmasında mühüm rol oynamağa davam edəcəkdir.

**Ceyhun Məmmədov.** Azərbaycan tarixinin dönüş nöqtələrindən və şanlı səhifələrindən biri olan Aprel döyüşlərinin başlanmasından 10 il ötür. Bu şanlı tarix Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun gücünü, xalqımızın möhkəm iradəsini və dövlətimizin qətiyyətini bütün

dünyaya nümayiş etdirən mühüm tarixi mərhələ kimi yaddaşlara həkk olunub.

2016-cı ilin aprel ayında Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində törətdiyi təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Qısa müddət ərzində həyata keçirilən uğurlu hərbi əməliyyatlar nəticəsində strateji əhəmiyyətə malik yüksəkliklər və yaşayış məntəqələri işğaldan azad olundu. Bu qələbə ordumuzun peşəkarlığını və döyüş qabiliyyətini bir daha bütün dünyaya sübut etdi.

Heç şübhəsiz ki, Aprel döyüşləri təkcə hərbi uğur deyildi. Bu döyüşlər xalqımızın mübarizə ruhunu daha da yüksəltdi, işğal altında olan torpaqlarımızın azad olunacağına olan inamı daha da gücləndirdi. Məhz bu birlik xalqımızda özünə olan ümidi bərpa etdi, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfərə aparan yolun təməlini qoydu.

Heç şübhəsiz ki, Aprel döyüşləri zamanı şəhid olan qəhrəman hərbçilərimiz vətən uğrunda canlarını fəda edərək şanlı tarix yazdılar. Onların göstərdiyi igidlik, fədakarlıq və qəhrəmanlıq heç zaman unudulmayacaq, xalqımız onların xatirəsini hər zaman əziz tutacaq.

Eyni zamanda, böyük qürur hissi ilə qeyd etmək lazımdır ki, bu döyüşlər Azərbaycan dövlətinin gücünü, ordumuzun modernləşmə siyasətinin uğurlu nəticələrini və Ali Baş Komandanın qətiyyətli rəhbərliyini aydın ortaya qoydu, güclü Ermənistan ordusu mifini puç etdi.

Bu gün Aprel döyüşlərini anarkən bir daha anlayırıq ki, həmin günlər böyük qələbəyə aparan yolun başlanğıcı idi. Azərbaycan xalqı öz birliyi, dövləti və ordusu ilə qəhrəmanlıq salnaməsi yazdı və heç şübhəsiz ki, bu tarix gələcək nəsillər üçün hər zaman böyük qürur mənbəyi olacaq.

Bir daha bütün şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir, qazilərimizə möhkəm cansağlığı arzulayırıq.

**Fatma Yıldırım.** Müzakirəyə təqdim olunan Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Təhsil haqqında” və “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi sosial müdafiə siyasətinin konkret və həssas bir istiqamətini əhatə edir. Söhbət minatəmizləmə fəaliyyəti zamanı həlak olmuş şəxslərin ailələrinin sosial təminatının gücləndirilməsindən gedir.

Bildiyimiz kimi, postmünaqişə dövründə minatəmizləmə işləri təhlükəsizliyin təmin olunmasının əsas şərtlərindən biridir. Bu sahədə çalışan şəxslər yüksək risk şəraitində fəaliyyət göstərir və onların əməyinin nəticəsi olaraq ərazilər həyat və iqtisadi dövriyyə üçün açılır. Bu prosesdə baş verən itkilər isə yalnız statistik rəqəm deyil, konkret ailələrin sosial vəziyyətinə birbaşa təsir edən reallıqdır. Məhz bu baxımdan təqdim olunan dəyişikliklər sosial siyasətin hədəfli və praktik mexanizmlərlə gücləndirilməsi kimi qiymətləndirilməlidir.

Hamımız bilirik ki, minatəmizləmə prosesi postmünaqişə dövrünün ən vacib və eyni zamanda, ən riskli istiqamətlərindən biridir. Bu sahədə çalışan insanlar faktiki olaraq hər gün həyat riski ilə üzləşirlər. Təəssüf ki, itkilər də olur. Bu halda əsas məsələ həmin insanların ailələrinin sosial təminatıdır.

Layihədə iki əsas dəyişiklik təklif olunur. Birincisi, Vergi Məcəlləsində dəyişikliklə bağlıdır. Burada həlak olmuş minatəmizləyənlərin ailə üzvlərinin aylıq gəlirindən 400 manat məbləğində azadolma nəzərdə

tutulur. Bu yanaşma praktik baxımdan başa düşüləndir. Məqsəd ailənin sərəncamında qalan real gəliri artırmaqdır.

İkincisi isə təhsil sahəsi ilə bağlıdır. Layihəyə əsasən həlak olmuş minatəmizləyənlərin övladlarının təhsil haqqı mülkiyyət formasından asılı olmayaraq, dövlət büdcəsi hesabına ödəniləcək. Bu, xüsusi ilə vacib mexanizmdir. Çünki ailə başçısını itirmiş ailələrdə təhsilin maliyyələşdirilməsi ciddi problemə çevrilə bilər.

Məncə, burada əsas məqam yanaşmanın sistemli olmasıdır. Yəni məsələ birdəfəlik yardımlarla yanaşı, davamlı dəstək mexanizmlərinin yaradılmasıdır.

Diqqət yetirilməli digər bir məsələ keçid müddəalarıdır. Layihədə göstərilir ki, dəyişikliklər 2026-cı ilin 15 sentyabr tarixindən tətbiq olunacaq. Amma eyni zamanda, bu hüquqlar əvvəlki dövrdə həlak olmuş minatəmizləyənlərin övladlarına da şamil edilir və 23 yaşa qədər qüvvədə olacaq. Bu, hüquqi baxımdan daha balanslı və ədalətli yanaşmadır.

Hesab edirəm ki, bu layihə hədəfli sosial dəstək nümunəsidir. Yəni yardım konkret kateqoriyaya yönəlir və real ehtiyaca cavab verir. Eyni zamanda, gələcəkdə bu istiqamətdə əlavə mexanizmlər də müzakirə oluna bilər, məsələn, məşğulluq imkanları, sosial xidmətlərə çıxış və digər dəstək formaları.

Ümumilikdə, təqdim olunan dəyişikliklər praktik, tətbiq oluna bilən və sosial baxımdan əsaslandırılmışdır. Mən bu qanun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

**Könül Nurullayeva.** Müzakirəyə təqdim olunan Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 871 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.1-ci yarımbəndində nəzərdə tutulmuş tədbirin icrası məqsədi ilə gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi üzrə xarici təcrübə də nəzərə alınmaqla aparılan ciddi və fundamental hüquqi araşdırmanın nəticəsi kimi dəyərləndirilməlidir.

Layihədə yer alan Əmək Məcəlləsində, eləcə də “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda, bütövlükdə, 190 fəaliyyət istiqamətini əhatə edən və işləyən qadınların əmək münasibətləri ilə bağlı formalaşmış normaların tətbiq səviyyəsi göstəricilərini ehtiva edən dəyişikliklər sözügedən strateji sahə üzrə bütün beynəlxalq fundamental hüquqi sənədlərin tələblərinə tam cavab verir.

Bu xüsusda çıxışımda birinci oxunuşun müzakirəsinin tələblərinə uyğun olaraq, məhz qanun layihəsinin aktuallığını şərtləndirən amilləri qeyd etməklə yanaşı, konseptual baxımdan bəzi təkliflərimi də diqqətinizə çatdırmağı məqsədəmüvafiq hesab edirəm.

Bildiyiniz kimi, ölkəmiz 2015-ci il 25–27 sentyabr tarixlərində keçirilən Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və BMT Baş Assambleyasının müvafiq qətnaməsi ilə qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmış, onun fəaliyyəti səmərəli təşkil edilmiş, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və

hədəflərə uyğun milli prioritetlər və onlara dair göstəricilər, milli səviyyədə DİM-ə nail olunmasına dair icra və hesabatlılıq mexanizmi müəyyən edilmiş, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalar DİM ilə uzlaşdırılmışdır.

Qeyd edək ki, Dünya Bankı tərəfindən hər il dərc edilən “Qadınlar, biznes və hüquq” hesabatında ölkələr üzrə, ümumilikdə, 8 göstərici üzrə 35 sual qiymətləndirilir. Hər göstərici üzrə orta bal hesablanaraq ümumi qiymət çıxarılır və 100 bal ən yüksək bal hesab olunur. Dünya Bankının Qadın, Biznes və Hüquq üzrə 2024-cü il nəşrindəki hesabat-reytinqdə Azərbaycan Respublikasının indeksi 78,8-dən təqribən 7 faiz artaraq 85-ə yüksəlmişdir. 2025-ci ilin icmal statistik məlumatları da son, daha konkret desək, dəqiqləşdirmə mərhələsindədir. Ötən ilin faktoloji materiallarının təhlili ölkəmizin adıçəkilən hesabat-reytinqdə növbəti yüksəlişinə əsaslı təminat verir.

Bununla belə, qeyd edilən hesabatda ölkəmizin reytinqinin yüksəldilməsi məqsədi ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində qadınların məşğulluq imkanlarını məhdudlaşdıran normaların aradan qaldırılması, ölkə üzrə qadınların orta əməkhaqqının kişilərin orta əməkhaqqına nisbətinin yüksəldilməsi, işləyən uşaqlı qadınlara güzəştlərin müəyyən edilməsi və ya onlar üçün əlverişli əmək şəraitinin yaradılması, ailə vəzifələrinin əmək münasibətləri ilə qarşılıqlı inteqrasiyasının təmin edilməsi əsas prioritetlər kimi nəzərdə tutulur.

Diqqətinizə təqdim etmək istədiyim ilk iki təklif bilavasitə müzakirə etdiyimiz qanun layihəsindəki dəyişikliklərdən qaynaqlanır və eyni dəyərə malik müxtəlif iş yerlərində əmək ödənişi sistemində bərabərliyi təmin etmək məqsədi daşıyır.

1. Layihə qəbul olunduqdan sonra büdcədən maliyyələşdirilən sahələrdə çalışan işçilərin əməyinin ödəniş sistemini bərabərdəyərli əməyə görə bərabər haqq verilməsi prinsipi əsasında təkmilləşdirməyi davam etdirmək və hüquqi sənədin praktikada tətbiqini nəzarətdə saxlamaq üçün sabit və işlək mexanizmin funksionallığı çox vacib şərtdir. Odur ki, yeni normaların tətbiqi zamanı bu amil nəzərə alınmalıdır.

2. Eyni dəyərə malik eyni və ya müxtəlif işlərin yerinə yetirilməsi ilə bağlı əməyin ödənişi sistemində bərabərliyi təmin etmək məqsədi ilə hazırda müzakirə predmeti olan hər iki normativ hüquqi aktda hüquqi tənzimləməni təkmilləşdirməklə bərabər, məhz dəyərli işin obyektiv qiymətləndirilməsi də işəgötürənlər tərəfindən əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan Vahid Tarif-İxtisas Sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. Belə ki, hüquqi sənədlər arasında kolliziyanın olmaması məqsədi ilə əlaqəli normativ aktlarda da dəyişikliklərin edilməsi zəruridir.

Sonda bu mühüm sahəni ehtiva edən normativ hüquqi aktların hazırlanmasında gender təsirinin qiymətləndirilməsi mexanizmlərinin tətbiqi çərçivəsində, bütövlükdə, qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərimi diqqətinizə çatdırıram.

1. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun 5.0.2-ci maddəsindən irəli gələrək “gender ekspertizası” anlayışı, həmin ekspertizanın çərçivəsi və keçirilməsinə dair ümumi tələblər (məsələn, ekspertizanın nəticəsinə dair rəyin tərtib edilməsi tələbləri və onun digər qurumlar üçün məcburi və ya tövsiyə xarakterli olması) ilə bağlı tənzimləmə nəzərdə tutulmamışdır. Nəzərə alınmalıdır ki, bir sıra

dövlətlərdə qanunda müəyyən olunmuş ümumi tənzimləmə ilə yanaşı, gender ekspertizasının aparılması ilə bağlı qaydalar mövcuddur.

2. Qanunun 3.2.6-cı maddəsindən irəli gələrək "xüsusi tədbirlər" anlayışı, bu tədbirlərin dairəsi, həyata keçirilməsi, əsas nəticələri, onları həyata keçirəcək qurumların səlahiyyəti dəqiqləşdirilməlidir. Belə ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 64.3-cü maddəsinə əsasən, normativ hüquqi aktda diskresion səlahiyyətlərin geniş olması nəticəsində qərar qəbul etmə müddətlərinin müəyyən edilməməsinə və ya bu müddətin qeyri-müəyyənliyinə, bu və ya digər qərarın qəbul edilməsi şərtlərinin və əsaslarının qeyri-müəyyənliyinə, müxtəlif dövlət orqanlarının səlahiyyətlərinin bir-birini təkrarlamasına yol verilmir.

3. Qanunun 19-cu maddəsində gender bərabərliyinin təmin edilməsinə nəzarət edən orqan müəyyən edilsə də, nəzarətin aparılması qaydası müəyyən edilməmişdir. Bu xüsusda sözügedən maddənin gender bərabərliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı qaydaların da təsbit olunduğu yeni redaksiyada verilməsi məqsədəmüvafiq olar.

Fikrimcə, gender bərabərliyi sahəsində monitorinq və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində növbəti dəyişikliklər paketi hazırlanarkən səsləndirdiyim təkliflərin hüquqi aprobasiyaya cəlb olunması məqsədəuyğun olardı.

Qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verirəm.

**Malik Həsənov.** Azərbaycanın xarici siyasətinin əsas tərkib hissələrindən biri ikitərəfli əlaqələrin qurulması və yeni istiqamətlər üzrə inkişaf etdirilməsidir. İkitərəfli əməkdaşlıqda qonşu dövlətlərlə əlaqələrə

xüsusi önəm verilir. Bunu Azərbaycan–Gürcüstan münasibətlərində aydın görmək mümkündür. Qarşılıqlı səfərlərin dinamikliyi strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan–Gürcüstan münasibətlərinin aydın mənzərəsini yaradır.

Prezident İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri bir daha iki ölkənin əlaqələrinin dünəninə və bu gününə baxış əsasında qarşıdakı dövrün hədəflərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadı. Dövlət başçısı İlham Əliyevin səfər çərçivəsində Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək, Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə təkbətək və geniş tərkibdə görüşləri oldu. Prezidentlərin görüşündə Azərbaycan–Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilərək, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna diqqət yönəldildi. Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulandı, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edildi. Görüşdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulandı. Qarşılıqlı maraq doğuran məsələlər ətrafında aparılan müzakirələr əlaqələrimizin gələcək inkişafının təqdimatı oldu.

Gürcüstan və Azərbaycan birlikdə bir çox önəmli layihələri icra ediblər. Bu layihələr həm ölkələrimiz, xalqlarımız, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Azərbaycan və Gürcüstanın regional inkişafa töhfələri davamlıdır. Dövlətlərarası münasibətlərdə iqtisadi amilin

rolunu nəzərə alsaq, iki ölkənin birgə həyata keçirdiyi neft-qaz, nəqliyyat, kommunikasiya layihələrinin əhəmiyyətini aydın şəkildə görmək olar. Regional çərçivədə qurulan əməkdaşlığın coğrafiyasının genişlənməsi əlaqələrimizin yüksələn xətlə inkişafının təsdiqidir. Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata birgə bəyanatında bu məqamlara xüsusi diqqət yönəldildi. Dövlətimizin başçısı bildirdi ki, iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Keçən il ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulub. Bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparıldı və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

Cənab İlham Əliyev bu reallığı da bir daha diqqətə çatdırdı ki, Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atıb. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsi ilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Artıq 20 ildir ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi icra edildi və bu gün bu infrastruktur böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan

üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Hər bir səfər münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, səfər iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Səfər çərçivəsində müzakirə edilən məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə vurğuladı ki, cənab İlham Əliyevin Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.

Təbii ki, bu kimi fikirlər iki ölkənin münasibətlərinin səmimi, qarşılıqlı hörmət və etimad üzərində qurulduğunun təsdiqidir. Əməkdaşlıqda hər zaman bu prinsiplərə xüsusi önəm verən Prezident İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan–Gürcüstan münasibətləri bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulub. Bu əminlik də ifadə edildi ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Səfər çərçivəsində keçirilən görüşlərdə, mətbuata birgə bəyanatda diqqət göstərilən əsas məsələlərdən biri də Azərbaycanla Ermənistan arasında sülh prosesi oldu. Dövlətimizin başçısı bildirdi ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsi ilə həyata keçirilir. “Bu gün Cənubi Qafqazda tamamilə

yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir" çağırışını edən Prezident İlham Əliyev vurğuladı ki, çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik, əfsuslar olsun, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtı ilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir.

Ümumiləşdirilmiş şəkildə qeyd edilib ki, qədim tarixi köklərə malik Azərbaycan–Gürcüstan münasibətləri uğurlu inkişaf yolu keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Tərəflər əlaqələrin hərtərəfli inkişafında maraqlıdır və bunu real addımları ilə təsdiqləyirlər.

**Vüqar Rəhimzadə.** Süni intellekt texnologiyalarının inkişafı cəmiyyətə bir çox üstünlüklər qazandırsa da, bu texnologiyalardan sui-istifadə halları getdikcə artmaqdadır. Xüsusi ilə şəxsin razılığı olmadan onun görüntüsü və ya səsinin istifadə edilməsi ciddi hüquq pozuntusu kimi qiymətləndirilməlidir. Bu materiallar reallığı əks etdirmədiyi üçün cəmiyyətin düzgün məlumatlandırılmasına mane olur və fərdlərin nüfuzuna ciddi zərər vurur.

Müasir dövrdə xüsusi proqram təminatları vasitəsi ilə insan görüntülərinin və səslərinin süni şəkildə dəyişdirilməsi və ya tamamilə saxta kontentin yaradılması texniki baxımdan olduqca asanlaşıb. Bu isə "deepfake" kimi tanınan təhlükəli tendensiyanın geniş yayılmasına səbəb olur. Belə materiallar vasitəsi ilə şəxslər haqqında yanlış təsəvvür formalaşdırılır, onların şəxsi həyatı və ictimai imici təhlükə altına düşür.

Şəxsin razılığı olmadan bu cür kontentin yaradılması və yayılması onun şəxsi həyatına kobud müdaxilə olmaqla yanaşı, psixoloji və sosial baxımdan ağır nəticələrə səbəb ola bilər. Bu, həm də insan hüquqlarının, xüsusi ilə də şəxsi toxunulmazlıq hüququnun açıq şəkildə pozulması deməkdir. Bu cür hallar şəxsi həyatın toxunulmazlığına müdaxilə etməklə yanaşı, şəxsin şərəf və ləyaqətinin müdafiəsinə xələl gətirə bilər, habelə ictimai rəyin manipulyasiyasına, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb ola bilər ki, bu da həmin sahədə müvafiq hüquqi mexanizmlərin formalaşdırılmasını zəruri edir. Bu səbəbdən şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt və digər texnologiyalar vasitəsi ilə hazırlanmış reallığı əks etdirməyən materialların yayılmasına qəti şəkildə yol verilməməlidir. Yalnız fərdə deyil, bütövlükdə, cəmiyyətə, dövlətə qarşı yönəlmiş bu kimi hallar qətiyyən qəbuledilməzdir. Ona görə də bu sahədə hüquqi məsuliyyətin artırılması və ictimai maarifləndirmənin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Təqdim olunan qanun layihəsi süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış reallığı əks etdirməyən foto, video və audio materialların hazırlanması və yayılması ilə bağlı hüquqi çərçivənin formalaşdırılması məqsədi ilə hazırlanıb. Layihəyə əsasən Cinayət Məcəlləsinə yeni 148-2-ci və 242-1-ci maddələrin əlavə edilməsi təklif olunur ki, bu da çox vacibdir. Belə ki, həmin maddələrə əsasən şəxsin razılığı olmadan onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları vasitəsi ilə reallığı əks etdirməyən foto, video və ya audio materialların hazırlanması və yayılması cinayət məsuliyyəti yaradır. Bununla yanaşı, Cinayət-Prosessual Məcəlləsinin 37.3-cü maddəsinə müvafiq dəyişiklik edilərək Cinayət Məcəlləsinin 148-2.1-ci maddəsi üzrə

cinayət təqibinin həyata keçirilməsi ilə bağlı prosessual norma müəyyən edilir. Eyni zamanda, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Media haqqında” qanunlarda edilən dəyişikliklərlə süni intellekt texnologiyalarından istifadə edilməklə hazırlanmış materialların yayılması ilə bağlı əlavə hüquqi tələblər, məhdudiyyətlər müəyyən olunur.

Texnologiyanın imkanlarından düzgün və etik çərçivədə istifadə olunması cəmiyyətin sağlam inkişafı üçün vacibdir. Hər bir fərdin hüquqları qorunmalıdır, onun razılığı olmadan şəxsi məlumatlarının və vizual-audio görüntülərinin istifadəsi yolverilməzdir.

Qanun layihəsi çox vacib, aktual və mühüm əhəmiyyət kəsb edir. Qanun layihəsini dəstəkləyirəm, deputat həmkarlarımı da səs verməyə çağırıram.